# QURANDAN CAVABLAR

“Onların sənə çəkdiyi elə bir məsəl yoxdur ki,
Biz sənə (onun) doğru olanını və daha yaxşı izahını
gətirməyək.” (Furqan surəsi, 33)

**HARUN YƏHYA**
**(ADNAN OKTAR)**

# MÜNDƏRİCAT


❖ “Din, Allah ilə bəndə arasındadır. Din əxlaqını başqalarına izah etməyə ehtiyac var?” səhv düşüncəsinə cavab

❖ “Din, həyatın sadəcə bir hissəsidir. Niyə həyatın hər anında Quran əxlaqının yaşanmasının vacib olduğunu düşünürsünüz?” səhv düşüncəsinə cavab

❖ “Quranın endirildiyi dövrlə indiki dövr çox fərqlidir. Quran ayələri indiki dövrə aiddir?” səhv düşüncəsinə cavab

❖ “Onsuz da mənim qəlbim təmizdir” səhv düşüncəsinə cavab

❖ “Mən hələ gəncəm, din əxlaqını gələcəkdə yaşayaram” səhv düşüncəsinə cavab

❖ “Quran əxlaqını mənimsəsəm, qarşılıq olaraq məndən nə gözlənilər?” səhv düşüncəsinə cavab

❖ “Niyə möminlər yeni tanış olduqları bir insana qarşı bu qədər qayğıkeş və sevgi dolu davranırlar?” deyənlərə cavab

❖ “Möminlərə qarşı yayılan pis xəbərlərdə heç bir həqiqət yoxdur?” səhv düşüncəsinə cavab

❖ “Əgər Quran əxlaqı insanlara bu qədər gözəl və mükəmməl bir quruluş vəd edirsə, niyə bu qədər qarşı olanlar var?” səhv düşüncəsinə cavab

❖ “Hamı haqsızdır, bir tək inananlar doğrudur?” səhv düşüncəsinə cavab

- “Möminlər həmişə bərabər olmaq məcburiyyətindədirlər? İnsan tək başına din əxlaqını yaşaya bilməz?” səhv düşüncəsinə cavab

- “İslamda müəyyən təbəqə fərqi varmı? İnsanlar var-dövlətinə, statusuna və gözəlliyinə görə mühakimə olunurmu? İslam dini müəyyən qrup insanlara izah olunur?” sualına cavab

- “Müsəlmanların varlı, güclü və qüdrətli olması İslamın ümumi məntiqi ilə ziddiyyət təşkil edirmi?” sualına cavab

- “Din əxlaqının tələblərini yerinə yetirməyə başlayan insan mütləq keçmiş ləzzətlərini tərk edərmi?” deyənlərə cavab

- “İnsan İslamı qəbul edib yaşamağa başlayanda keçmiş tanışları, dostları illə birlikdə ola bilməzmi?” deyənlərə cavab

- “Din əxlaqını yaşamaq istəyirəm, amma ailəmdən və ətrafımdan pis reaksiya almaqdan qorxuram” deyənlərə cavab

- “İslamı yaşamağa başladıqdan sonra keçmiş həyatımda etdiklərimə görə məsuliyyət daşıyırammı?” deyənlərə cavab

- “Dini yaşamaq istəyirəm, ancaq bu gücü özümdə tapa bilmirəm” səhv fikrinə cavab

- Nəticə: “Eşitdik və itaət etdik” deyə bilmək

- Darvinizmin Süqutu

# YARADILIŞ HƏQİQƏTİ

İnsan ətrafda gördüyü hər şeydə ona Allahı tanıtdıracaq saysız-hesabsız dəlillərlə qarşılaşır. Palçıqlı torpaqdan çıxan rəngarəng, ətirli çiçəklər, ləzzətli tərəvəz və meyvələr, ətrafımızda gördüyümüz sevimli və diqqət çəkici heyvanlar, bu gözəllikləri qavramağımıza imkan yaradan duyğu orqanları və bunlar kimi saysız-hesabsız dəlillər... Bütün bunlar "iman həqiqətlərdir." Yəni insanı imana aparan, imanını artıran həqiqətlər, yaradılış möcüzələridir. Bu hissədə iman həqiqətlərindən bəzi nümunələr verilmişdir.

**www.hayvanlaralemi.net**

**... Sizi yırğalamasın deyə yerə uca dağlar yerləşdirdi və onun hər tərəfinə növbənöv canlılar yaydı. Biz göydən su endirib onunla orada hər növ gözəl bitkidən bitirdik. Bu, Allahın yaratdıqlarıdır. Elə isə, Mənə başqalarının nə yaratdığını göstərin!...**

**(Lokman Suresi, 10-11)**

Sincab, yaşaması üçün ehtiyac duyduğu bütün xüsusiyyətlərlə birlikdə yaradılmışdır. Sahib olduğu sevimli görünüşü, Allahın insanlara bəxş etdiyi saysız-hesabsız gözəlliklərdən biridir. Tək bir sincab belə bu xüsusiyyətləri ilə ağıl və vicdan sahibi insanlara bunun kor və şüursuz təsadüflərin əsəri olmadığını açıq şəkildə nümayiş etdirir.

**www.darwinistneleridusunmez.com**

Ağ dovşan, yaşadığı mühitdə özünü kamuflyaj edə bildiyini anlamadan yaşayır. Kəpənək qanadlarındakı simmetriyanın, naxışların və harmoniyanın fərqində deyil. Amma hər ikisinə baxan hər bir ağlı başında olan insan bu canlıların zamanla təsadüflər nəticəsində yarana bilməyəcəyini və hər ikisinin mükəmməl yaradılışın açıq dəlilləri olduğunu görər.

www.canlilarinevrimi.com

**Göylərdə və yerdə olan hər bir canlı və mələklər təkəbbürlənmədən Allaha səcdə edirlər. (Nəhl surəsi, 49)**

www.altinoran.org

Sahib olduğu rəngləri, naxışları və simmetriyası tovuz quşunu olduqca möhtəşəm edir. Amma nə üçün var olduğunu belə bilməyən, gözəlliyi qiymətləndirmək qabiliyyəti olmayan bir canlıdır. Quyruğundakı rəng və naxışlarla dünyanın ən gözəl görüntülərindən birini nümayiş etdirən bu varlıq, insanların Allaha şükür etmələri və Allahın yaratma gücünü görmələri üçün yaradılmış nemətlərdən sadəcə biridir.

www.hayatinkokeni.com

**Şayət yer üzündəki ağaclar qələm olsaydı və dəniz mürəkkəb olub arxasından yeddi dəniz də ona qatılsaydı, yenə də Allahın sözləri (yazmaqla) tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət və hikmət sahibidir. (Loğman surəsi, 27)**

www.ALLAHvar.com

**Yer üzünü döşəyib orada sabit dağlar yerləşdirdik və hər növ gözəl bitki bitirdik. Bunları Allaha yönələn hər bir bəndə üçün ibrət və öyüd-nəsihət olsun deyə yaratdıq. (Qaf surəsi, 7-8)**

Bala heyvanların son dərəcə sevimli görünüşü var. Hətta ən vəhşi heyvanların belə balalarındakı bu sevimlilik ilk diqqət çəkən xüsusiyyətlərdəndir. İri gözləri, yuvarlaq üz cizgiləri, üzlərində təəccüb və təslimiyyətlə qarışıq “körpə” ifadəsi onların şirinliyini daha da artırır. Heyvanların balaları, dost davranışları ilə Allahın sənətinin təcəllilərindəndir.

Qatil böcəklər, həzm sistemi xaricdə olan bir növ formasında qidalanırlar. Onlar, ovlarının toxumasını mayeyə çevirən zəhər ifraz edirlər, sonra onu sovururlar. Toksin tez işləyən və ovunu bir neçə saniyə ərzində əridən quruluşa malikdir. Bəzi qatil böcəklər aktiv şəkildə ovunu ovlayarkən digərləri gözləyərlər. Bu qatil böcəyin qanadlarında rənglər vardır.

Hal-hazırda qatil böcəklərin sahib olduğu bütün xüsusiyyətlərə, aşağıdakı şəkildə görünən fosil kimi 25 milyon il əvvəl yaşamış qatil böcəkləri də malikdir.

Dövr: Kaynozoy erası, Oliqosen dövrü

Yaş: 25 milyon il

Region: Dominikan Respublikası

25 milyon illik qatil böcək fosili (yuxarıda).

Yan tərəfdə, bu gün yaşayan qatil böcəyini görmək olar.

Kirpi balığı milyonlarla ildir heç bir dəyişiklik olmadan varlığını davam etdirir. 95 milyon il əvvəl yaşamış kirpi balığı ilə bu gün yaşayan kirpi balığının tamamilə eyni olmada olması təkamülçülərin heç vaxt açıqlaya bilməyəcəyi bir şeydir. Fosillərin göstərdiyi həqiqət, canlıların Allah tərəfindən yaradılmasıdır.

**www.evrimbelgeseli.com**

(Yan tərəfdə) hal-hazırda yaşayan kirpi balığı, aşağı tərəfdə isə 95 milyon illik kirpi balığı fosili).

Dövr: Mezozoy erası, Təbaşir dövrü

Yaş: 95 milyon il

Region: Livan

Qanadlı qarışqanın, uzunluğu 5-8 mm uzunluğunda iki qanadı vardır. Yuvalarını suya və qida mənbələrinə yaxın quran bu qarışqalar milyonlarla ildir heç bir dəyişikliyə məruz qalmamışdır. Kəhrəbanın içində olan 25 milyon illik qanadlı qarışqa fosili, həmin canlıların milyonlarla ildir eyni olduqlarını, yəni təkamül keçirmədiklərini göstərir.

**www.harunyahya.net**

Dövr: Kaynozoy erası, Oliqosen dövrü

Yaş: 25 milyon il

Region: Dominikan Respublikası

Milyonlarla ildir yaşayan qanadlı qarışqa

25 milyon illik çöl arısı və donqar milçək fosili bütün canlılar kimi həşərat növlərinin də təkamül keçirmədiyini sübut edir. Bu canlılar, aşağıda göründüyü kimi, milyonlarla ildir ki, bu gün yaşayan nümunələrlə eynidirlər, yəni təkamül keçirməmişlər;

**www.yaratilismuzesi.com**

25 milyon illik parazit çöl arısı və donqar milçəyin fosili

Donqar milçək

Çöl arısı

Donqar milçək

Çöl arısı

Aşağıdakı şəkildə, kəhrəbanın içində fosilləşmiş iki ədəd iynəsiz arı fosili vardır. Bir az aşağıda bu gün yaşayan iynəsiz arı var. Bu canlıların indiki dövrdəki nümunələrinin milyonlarla il əvvəl yaşamış canlılardan heç bir fərqi yoxdur.

**www.yasayanfosiller.com**

Dövr: Kaynozoy erası, Oliqosen dövrü

Yaş: 25 milyon il

Region: Dominikan Respublikası

25 milyon illik iynəsiz arı

25 milyon ildir heç bir dəyişiklik olmadan yaşamış qal milçəkləri və qanadlı qarışqalar təkamül nəzəriyyəsinin iddialarını alt-üst edir. Şəkillərdə kəhrəba içərisində qal milçəyi, qanadlı qarışqalar və onların dövrümüzdəki canlı nümunələri göstərilir.

**www.kuranmucizeleri.org**

25 milyon illik ağcaqanad və qanadlı qarışqa fosili

Hörümçəklər yüz milyonlarla ildir quruluşunu dəyişmədən var olan canlılardan biridir. Burada görülən kəhrəbadakı hörümçək və hörümçək torunun 25 milyon il yaşı var. Bu gün yaşayan nümunələrdən heç bir fərqi olmayan bu canlı "Biz təkamül keçirmədik, yaradıldıq" deyir.

**www.canlilarinevrimi.com**

Kəhrəba içərisində 25 milyon illik hörümçək və onun torunun fosili

Bütün fosillər canlıların var olduqları gündən bəri eyni xüsusiyyətlərə sahib olduqlarını, zamanla dəyişmədiklərini və təkamül keçirmədiklərini göstərir. Bu fosillərdən biri də aşağıdakı 25 milyon illik kəhrəbadır ki, bu da, ağac qabığı bitlərinin milyonlarla ildir eyni olduğunu göstərir.

**www.dunyadanyankilar.com**

Dövr: Kaynozoy dövrü, Oliqosen dövrü

Yaş: 25 milyon il

Region: Dominikan Respublikası

25 milyon illik ağac qabığı biti fosili (sağda)

Aşağıda bu gün yaşayan ağac qabığı biti

Aşağıdakı kəhrəbada görünən böcək Pyrochroidae ailəsinə aiddir və adətən atəşböcəyi kimi tanınır. Bu nümunədə atəşböcəyinin dişli antenası çox aydın şəkildə görünür. Bu kəhrəbanın içərisində eyni zamanda qırxayaq və hörümçək fosilləri də var.

Milyonlarla ildir dəyişməyən atəşböcəyi, qırxayaq və hörümçəklər, canlıların digər növlərdən tədricən inkişaf etmədiyini, sahib olduqları bütün xüsusiyyətlərlə birlikdə yaradıldıqlarını göstərir.

**www.evrimmasali.com**

Dövr: Kaynozoy erası, Oliqosen dövrü

Yaş: 25 milyon il

Region: Dominikan Respublikası

25 milyon illik atəşböcəyi, qırxayaq və hörümçək fosili

Qırxayaq

Bu gün yaşayan hörümçək növü

Atəşböcəyi

25 milyon il yaşı olan qabıq böcəkləri bugünkü nümunələrlə eynidir. Milyonlarla ildir eyni olan bu böcəklər canlıların təkamül keçirmədiyini, yaradıldığını göstərən nümunələrdən biridir.

**www.yasayanfosiller.com**

Milyonlarla il əvvəl yaşamış qabıq böcəklərinin bugünkü nümunələrdən heç bir fərqi yoxdur (yan tərəfdə).

25 milyon illik qabıq böcəyi fosili (yan tərəfdə)

Fosillər canlıların əksiksiz və qüsursuz quruluşları ilə bir anda ortaya çıxdıqlarını və var olduqları müddətdə dəyişmədiklərini göstərir. Təkamülçülərin izah edə bilmədiyi nümunələrdən biri də, kəhrəba içərisində olan 25 milyon illik at nalı xərçəngi böcəyinin fosilidir.

**www.altinoran.org**

At nalı xərçəngi böcəkləri təkamülə meydan oxuyur. Aşağıda kəhrəba içərisində 25 milyon illik at nalı xərçəngi böcəyinin fosili, solda isə canlı nümunəsi var.

# QURANDAN CAVABLAR
# ÖN SÖZ

İman etməyənlər ilə Allaha həqiqi iman edən, Onun kitabını və Peyğəmbərimizi (s.ə.v) özlərinə rəhbər tutan insanlar arasında böyük fərqlər vardır. Mömin və inkarçı olan bu iki qrup tamamilə fərqli iki dünyanın insanlarıdır. Quranda bildirildiyi kimi, axirətdə bir-birlərindən ayrılacaqlar, bir tərəf cənnət, digər tərəf cəhənnəm əhli olacaq.

Ancaq bu iki tərəf arasındakı böyük fərq, aşılması imkansız olan həddi təşkil etmir: Din əxlaqından uzaq bir mühitdə böyüyən bəzi insanlar da zamanla həqiqəti dərk edib, Allahın verdiyi hidayət üzərinə tövbə edib Allah yoluna girə bilərlər. Quranda bildirildiyi kimi, bu, çox vaxt möminlərin yerinə yetirməklə məsul olduqları "təbliğ" (Quran əxlaqını izah etmək və yaymaq) ibadəti vəsiləsi ilə olur.

Möminlər, Allahın varlığını və birliyini, Rəbbimizin haqq yolunu (Quran hökmlərini və Peyğəmbərimizin sünnəsini) bacardıqları qədər, Allahdan və axirətdən xəbəri olmayan, dünya həyatına aldanmış "cahil" cəmiyyətə izah edərlər. Cahil bir cəmiyyətdə böyümüş, lakin iman edəcək ağıla və vicdana sahib olan insanlar bu təbliğ nəticəsində iman edərlər.

Ancaq Allahın varlığını və Quranın Rəbbimizin haqq kitabı olduğunu təsdiq edən bir insan, bir anda cahiliyyə dövründə yaşadığı vərdişlərdən, yanlış mühakimələrdən və düşüncələrdən bir anda qurtula bilməz. Quranı dərindən öyrənənə və onu mənimsəyib hər şeyə Quranın rəhbərliyinə və Peyğəmbərimizin (s.ə.v) sünnəsinə uyğun baxmağa alışana qədər, cahiliyyənin təlqini nəticəsində sahib olduğu bəzi səhv düşüncə tərzini və davranışlarını davam etdirə bilər. Bundan əlavə, üzərindəki cahiliyyənin təsiri ilə yeni tanış olduğu imanlı insanların bəzi xüsusiyyətlərini anlamaqda çətinlik çəkə bilər.

Buna görə də, möminlərlə yeni tanış olmuş və din əxlaqını öyrənməyə çalışan bir insanın ağlına bəzi suallar gəlməsi və bəzi məsələlərdə doğru cavabın nə olduğu ilə maraqlanması təbii haldır. Quranda bütün bu sualların cavabı vardır və cahiliyyənin bütün səhv məntiq və davranışlarına qarşı həqiqətlər öyrədilir.

Bu kitabı yazmaqda məqsəd Quran əxlaqı ilə və iman edənlərlə yeni tanış olan insanların ağlına gələcək sual və şübhələrə Quran ayələri və dəyərli Peyğəmbərimizin sünnəsi ilə cavab vermək və bu insanların cahiliyyə əxlaqından qazandıqları səhv davranış və düşüncələrin yerinə Quranda bildirilən həqiqətləri izah etməkdir.

# GİRİŞ

Dünyada yaşayan cəmiyyətlərin çox fərqli quruluşu və dəyərləri var. İdeologiyalar, adət-ənənələr, mədəniyyətlər insanlar arasında böyük fərqlər yaratmışdır. Bu səbəbdən insanların düşüncələri və davranışları bir-birinə tamamilə zidd olur. Bir insan üçün doğru olan başqası üçün tamamilə səhv ola bilər.

Lakin insanlar arasındakı bu mədəni və ideoloji fərqlərdən daha böyük və əsaslı fərq var. Qurana görə bütün insanlar iki qrupa bölünür: Allaha iman edənlər və iman etməyənlər. Və bu iki qrup arasındakı fərq o qədər böyükdür ki, bayaq qeyd etdiyimiz ənənəvi və mədəni fərqlər son dərəcə əhəmiyyətsiz qalır.

İman edən insan Allahın sonsuz qüdrətinin fərqindədir: Onu və bütün digər varlıqları Allah yaratdığını və Onun idarəsi altında olduğunu, Rəbbimizin hər şeyə qadir olduğunu və bütün mülkün Ona aid olduğunu dərk edir. Bu dünyanın müvəqqəti bir yurd olduğunu və buradakı əməllərinin hesabını axirətdə Allah qarşısında verəcəyini də bilir. Halbuki Allahı tanımayan insan təbii olaraq bütün bu həqiqətlərdən xəbərsizdir. Səhv düşüncəsinə görə, bütün dünya başıboş və tərk edilmiş vəziyyətdədir. Bu mühitdə varlığını qorumağa, mənfəətlərini qorumağa çalışmalıdır. Bütün əməllərinə görə cavab verəcəyindən xəbərsiz olduğuna görə mənfəətlərini qorumaq üçün hər cür saxtakarlığı asanlıqla edər.

Bu iki insan modelinin dünyaya baxışı və xarakteri, əxlaqı və davranışı bir-birinə tamamilə ziddir. Quranda bu fərqlər geniş şəkildə açıqlanır.

Quranda bildirildiyi kimi, inkar edən cəmiyyət Allahı tanımayan və ya **“...Ona arxa çevirmiş...”** (Hud surəsi, 92) və **“Allahı layiqincə tanımadılar...”** (Ənam surəsi, 91) formasında insanlardan ibarət bir cəmiyyətdir ki, Quranda bu cəmiyyətə **“cahiliyyə cəmiyyət”** deyilir. Bu cəmiyyət özünü **“qabaqcıl və müasir mədəniyyət”** olaraq tanıtsa da, Allahı layiqincə təqdir etməyən, axirət həyatını lazım olduğu kimi bilməyən, öz varlığının məqsədini bilməyən bir quruluşa sahib olduğuna görə əslində **“cahil”**dir.

Əsl möminlər isə bu **“cahil cəmiyyətin”** üzvləri ilə müqayisədə sayca azlıq təşkil edirlər. Quranda peyğəmbərlərin hekayətlərində açıq şəkildə göründüyü

kimi, möminlər tarix boyu cahil cəmiyyətdən çıxmış, lakin cəhalətin çirkin məntiqindən tamamilə arınmış, təmiz, saleh və ağıllı insanlardır.

Onu da qeyd edək ki, möminlərin cahil cəmiyyətindən fərqli quruluşa sahib olması, onlarla heç vaxt ünsiyyətdə olmayacaqları demək deyil. Əksinə, möminlər Allahın əmrinə uyğun olaraq həmişə bu insanlarla danışmağa və onları Quran əxlaqını yaşamağa dəvət etməyə çalışırlar. Çünki bu cəmiyyət arasında iman edəcək vicdan və ağıl sahibi insanlar var; lakin onlara bu haqda deyilmədiyi üçün din əxlaqından xəbərsiz olub, "cahil" qalıblar. Möminlər Quran əxlaqını bu insanlara şəfqət və xoş sözlərlə izah etməyə çalışarlar.

Ancaq cahil cəmiyyətdən gələn və möminlərlə yeni tanış olan insanın əvvəlcə bəzi sualları ola bilər. Çünki Quran əxlaqına malik olan insanlar onun görməyə alışdığı insanlardan çox fərqlidirlər. Eqoist, mənfəətçi, vicdansız, təkəbbürlü və bəsit məqsədləri olan insanların yanında olmağa alışdığı halda, birdən-birə çox vicdanlı, fədakar, ağıllı, şəxsiyyətli, təvazökar, etibarlı və tolerant insanlarla qarşılaşmaq o insanı təəccübləndirə bilər.

Möminlər həmişə səmimi və dürüst insanlardır. Çünki onlar Allahın göstərdiyi yol ilə gedirlər və insan üçün onu yaradan Allahdan başqa doğru yol göstərən yoxdur. Quran əxlaqı ilə yeni tanış olmuş bir insanın bütün şübhələri, aralarından çıxıb gəldiyi cahil cəmiyyətin təlqinindən qaynaqlanır.

Bu kitab cahil cəmiyyətdən gələn və Quran əxlaqı ilə yeni tanış olmuş bir insanın beynində yaranacaq sual və şübhələri izah etmək üçün yazılmışdır.

Növbəti səhifələrdə bu suallar və onların cavabları maddələr halında araşdırılır.

# "Din, Allah ilə bəndə arasındadır. Din əxlaqını başqalarına izah etməyə ehtiyac varmı?" səhv düşüncəsinə cavab

İnsanlara yaxşılığı xatırlatmaq, nəsihət vermək Quranda möminlərə əmr edilən ibadətdir. Dindar bir insan Quran əxlaqını yaşayarkən din əxlaqından uzaq olan səhv əməllər edən birinin qazandığı zərərləri bildiyi üçün vicdanı bu vəziyyətə görə məsuliyyət daşıyar və xoş sözlə, şəfqətlə həmin insanı xəbərdar etməyi özünə borc bilər. Bu xəbərdarlıq və xatırlatmalar hər bir vicdanlı mömin edəcəyi vacib hərəkətdir. Bu davranış Quranda "yaxşılığı əmr edib, pisliklərdən çəkindirmək" şəklində ifadə edilir.

"Yaxşılığı əmr edib, pislikdən çəkindirmək" eynilə namaz, oruc və zəkat kimi Quranda əmr edilən və hər müsəlmana vacib olan ibadətdir. Quranın bir çox ayəsində bəhs edilən bu ibadəti yerinə yetirmək iman edənlərin əsas xüsusiyyətlərindən sayılır:

**Mömin kişilər və mömin qadınlar da bir-birlərinin dostudurlar. Onlar yaxşı işləri əmr edər, pis işləri qadağan edər, namazı qılar, zəkatı verər, Allaha və elçisinə itaət edərlər. Allah onlara mərhəmət edəcəkdir. Şübhəsiz ki, Allah yenilməz qüvvət və hikmət sahibidir. (Tövbə surəsi, 71)**

**Onlar Allaha və axirət gününə inanır, yaxşı işlər görməyi əmr edib pis əməllərdən çəkindirir və xeyirli işlər görməkdə bir-birləri ilə yarışırlar. Onlar əməlisaleh kimsələrdəndirlər.**

**(Ali İmran surəsi, 114)**

**Onlar tövbə edən, ibadət edən, şükür edən, oruc tutar, rüku və səcdə edən, yaxşı işləri əmr edib pis işləri qadağan edən və Allahın (halal-haram) hüdudlarını qoruyanlardır. Belə möminləri müjdələ! (Tövbə surəsi, 112)**

Allah başqa bir ayədə qurtuluşun, yaxşılığı əmr edib, pislikdən çəkindirmək ibadətinin yerinə yetirilməsinə bağlı olduğunu bildirir:

**Aranızda, xeyrə çağıran, yaxşılığı əmr edən və pis əməllərdən çəkindirən bir camaat olsun. Onlar əsil nicat tapanlardır.**

**(Ali İmran surəsi, 104)**

Heç bir müsəlman tamamilə qüsursuz və günahdan uzaq deyil. Unudaraq, bilmədən və ya nəfsinə uyaraq səhv etmək, Allahın imtahanı olaraq möminlərin mənəvi cəhətdən inkişaf etməsinə və yetkinləşməsinə vəsilə olan hadisədir. Ancaq günah etməkdə möminləri kafirlərdən fərqləndirən ən mühüm xüsusiyyət, möminlərin öz səhvlərində israr etməmələri, səhvlərini bildikləri zaman dərhal düzəldib doğru olanı qəbul etmələridir. Allah Quranda belə buyurur:

**O (müttəqilər) ki, bir günah işlədikləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb günahlarının bağışlanmasını istəyərlər. Günahları Allahdan başqa kim bağışlaya bilər? Onlar etdikləri əməllərdə (günahlarda) biləbilə israr etməzlər.**

**(Ali İmran surəsi, 135)**

Elə buna görə də, İslamı dinini yaşayan hər müsəlmanı nöqsanları və ya səhvləri barədə xəbərdar etmək digər müsəlmanların vəzifəsidir. Əgər bir möminin davranışında və ya zehniyyətində Qurana uyğun olmayan qüsur varsa, bunu görən başqa bir mömin dərhal onu xəbərdar etməli və doğru olanı xatırlatmalıdır. Beləliklə, qardaşının axirətinə və əbədi həyatına mənfi təsir edəcək vəziyyəti aradan qaldıraraq, qardaşına böyük yaxşılıq etmiş olar.

Buradan da başa düşüldüyü kimi, yaxşılığı əmr edib, pislikdən çəkindirmək islam dinində ən mühüm ibadətlərdəndir. Beləcə mömin, zaman keçdikcə bütün qüsurlarını düzəldəcək, bütün səhvlərini aradan qaldıracaq və Allahın Quranda təsvir etdiyi ideal mömin əxlaqına sahib olacaq və beləcə, Allaha daha çox yaxınlaşmağa ümid edəcək. Buna görə də, Allah Quranda bu

ibadəti layiqincə yerinə yetirən, sevgi və mərhəmət sahibi olan möminləri tərifləyir:

**Siz insanlar üçün ortaya çıxarılmış ən xeyirli ümmətsiniz. Yaxşılığı əmr edib pis əməlləri qadağan edirsiniz və Allaha inanırsınız... (Ali İmran surəsi, 110)**

**Yaratdıqlarımız içində elə bir zümrə də var ki, onlar haqq yola yönəldir və onun sayəsində ədalətli davranırlar.**

**(Əraf surəsi, 181)**

"Yaxşılığı əmr edib, pislikdən çəkindirmək" yalnız möminlərə aid davranış deyil. Quran əxlaqından uzaq olan insanlara islamı tanıtmaq, onları din əxlaqına dəvət etmək, Quran əxlaqını izah etmək də mühüm ibadətlərdəndir. Quran əxlaqını izah etmək və insanları Allah yoluna dəvət etmək bütün peyğəmbərlərin və onlara tabe olan möminlərin əsas vəzifələrindən olmuşdur. Quran ayələrinə nəzər saldıqda görürük ki, peyğəmbərlərin ömrü bu şərəfli vəzifəni yerinə yetirmək və çətinliklərə görə ruhdan düşmədən insanları doğru yola dəvət etməklə keçmişdir. Ayələrdə hz. Nuhun sözləri bu şəkildə bildirilir:

**Nuh dedi: "Ey Rəbbim! Mən qövmümü gecə-gündüz (haqq yola) dəvət etdim. Ancaq mənim dəvətim onların (haqq yoldan) qaçmalarını daha da artırdı. Hər dəfə onları bağışlayasan deyə mən onları (haqq yola) dəvət etdiyimdə, barmaqlarını qulaqlarına tıxadılar, (məni görməmək üçün) paltarlarına büründülər, dirəndilər və çox təkəbbürləndilər. Sonra mən onları ucadan dəvət etdim. Sonra mən onlarla həm açıq-aşkar, həm də gizlicə danışdım." (Nuh surəsi, 5-9)**

Quranda bildirildiyi kimi, dində məcburiyyət və təzyiq yoxdur. İman etmək vicdan məsələsi olduğuna görə lazımi izahlar və dəlillər təqdim edildikdən sonra qəbul edib etməmək qarşı tərəfin öz seçiminə bağlıdır. Məsul olduğu təbliğ vəzifəsini yerinə yetirdikdən sonra qarşısındakı onu rədd edərsə,

möminin üzərinə heç bir məsuliyyət düşmür. Bu həqiqət Quranda dəfələrlə bildirilmişdir. Bu ayələrdən bəziləri aşağıdakılardır:

**Bizim vəzifəmiz ancaq (Allahın əmrlərini) açıq-aşkar təbliğ etməkdir. (Yasin surəsi, 17)**

**Sən öyüd-nəsihət ver! Sən yalnız öyüd-nəsihət verənsən. Sən onları məcbur edən deyilsən. (Ğaşiyə surəsi, 21-22)**

Peyğəmbərimiz (s.ə.v) də bir hədisində dinin yalnız nəsihət olduğunu, dində məcburiyyət və təzyiq olmadığını bildirmişdir:

**Sonra Süfyan Süheyldən, o da Ata İbn Yeziddən, o da Təmimut Daridən rəvayət etdi. Həzrəti Peyğəmbər (s.ə.v.) buyurur: "Din ancaq nəsihətdir"... (Səhihi Müslim, 1-ci cild, səh. 115)**

İndiyə qədər göründüyü kimi, insanlara islamdan və Qurandan danışmağın, öyüd-nəsihət verib xatırlatmağın Allah ilə bəndə arasına girməklə heç bir əlaqəsi yoxdur. Əksinə, təbliğ, Allahın əmr etdiyi ibadətdir və bütün insanların islam əxlaqını öyrənməsinin, Allahın əmr və qadağalarının yerinə yetirilməsi üçün əsas şərtlərindən biridir.

# "Din həyatın bir hissəsidir. Sizcə niyə həyatın hər anında Quran əxlaqı yaşanmalıdır?" səhv düşüncəsinə cavab

Din əxlaqı həyatın bir hissəsini deyil, hamısını əhatə edən, insana həyatının hər anında gözəllik və rifah təqdim edən bir sistemdir. Təbii ki, burada nəzərdə tutulan həqiqi islam dinidir.

Müsəlman 24 saatını Allahın razı qaldığı şəkildə keçirər. Səhər duranda, yemək yeyəndə, işləyəndə, məktəbə gedəndə, ticarətlə məşğul olanda, alış-veriş edərkən Allahın əmr etdiyi Quran əxlaqına əməl edər. Allahı razı olmayacağını düşündüyü hər cür davranışdan qəti şəkildə çəkinər. İslam əxlaqı həyatın yalnız bir hissəsini deyil, əksinə hamısını, hətta ondan da çoxunu əhatə edir.

Bunun əksinə inanmaq Quranın bir qismini qəbul edib, bir qismini qəbul etməmək mənasına gəlir. Quranın bir hissəsini qəbul etməmək, şübhəsiz ki, hamısını inkar etmək deməkdir:

**... Siz kitabın bir hissəsinə inanıb, digər hissəsini inkarmı edirsiniz? Sizdən kim bu cür işlər görərsə, onun cəzası dünya həyatında rüsvay olmaqdır. Qiyamət günü isə onlar ən şiddətli əzaba düçar olacaqlar. Allah etdiklərinizdən qafil deyil. Onlar axirəti dünya həyatına dəyişən kimsələrdir. Buna görə də onların nə əzabı yüngülləşər, nə də onlara kömək olunar.**

**(Bəqərə surəsi, 85-86)**

Quranda izah edilən din əxlaqı, heç bir şəkk-şübhəyə yer vermədən, tam təslimiyyətlə, Allaha inanıb bağlı olmaq, Onun əmr və qadağalarına hərtərəfli tabe olmaq prinsiplərinə əsaslanır.

Möminlərin bu xüsusiyyətləri Quranın bir çox ayəsində açıqlanır. Bu ayələrdən bəziləri bunlardır:

**Möminlər o kəslərdir ki, Allaha və elçisinə iman edər, sonra da bundan əsla şübhəyə düşməz və Allah yolunda malları və canları ilə cihad edərlər. Məhz onlar sadiq olanlardır.**

**(Hucurat surəsi, 15)**

**De: "Şübhəsiz, mənim namazım da, ibadətim də, həyatım da, ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür."**

**(Ənam surəsi, 162)**

**O kəslər ki, nə ticarət, nə də alış-veriş onları Allahı anmaqdan, namaz qılmaqdan və zəkat verməkdən yayındırar. Onlar qəlbin və gözlərin çevriləcəyi (iztirab çəkəcəyi) bir gündən qorxarlar.**

**(Nur surəsi, 37)**

Bu ayələrdən də anlaşıldığı kimi, mömin həqiqətən özünü Allaha həsr etmiş insandır. Ömrünün hər anında Allahın rizasını qazanmağı hədəfləyən, Allahın yaratdığı hadisələrdə hikmət axtaran, axirət haqqında düşünən insandır. Quranda möminlər belə təsvir edilir:

**Onlar ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayar, göylərin və yerin yaradılması haqqında düşünərlər (və belə deyərlər:) "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan. Sən pak və müqəddəssən! Bizi cəhənnəm əzabından qoru!" (Ali İmran surəsi, 191)**

**Şübhəsiz ki, Biz onları axirət yurdunu düşünən ixlaslı kimsələr etdik. (Sad surəsi, 46)**

İman bilməyən insan belə bir gözəl təslimiyyəti və imanın dərinliyini anlamaqda çətinlik çəkər. Onun materialist və batil dünyagörüşünə görə, ölüm yox olmaqdır və buna görə də bacardığı qədər dünyadan həzz almalıdır. Bu səhv dünyagörüşünə malik bir insan üçün dünyadan yetərincə faydalana bilmədiyi hər an onun üçün itkidir.

Digər tərəfdən, iman etdiyini deyən, lakin imanın dərinliyini dərk etməyən bəzi insanlar, dinin insan həyatının müəyyən anları ilə məhdudlaşdığına dair səhv təsəvvürə malikdirlər. Bu insanların batil düşüncələrinə görə, bir insanın həyatının hər anında Allahı razı salacaq əxlaqa sahib olması yalnız Uca Rəbbimizin rizasını istəməsi ilə mümkün deyil. Bu insanlar bu cür batil düşüncələri yayaraq insanları səthi və zəif inanca yönəltmək istəyirlər. Allah möminləri bu cür insanların yalanlarına qarşı bu şəkildə xəbərdar edir:

**İnsanlardan eləsi də var ki, onun dünya həyatı haqqındakı sözləri sənin xoşuna gələr. O, qəlbində olana da Allahı şahid göstərər. Halbuki o, düşmənlərin ən qatısıdır. (Bəqərə surəsi, 204)**

Bu insanların azğın həyat fəlsəfəsi; "din var və lazımdır", "müsəlmanlıq çox gözəl şeydir, amma hər şeyi ağıllı şəkildə etmək lazımdır", "çox dərinə getməmək lazımdır, yoxsa ağlını itirərsən" kimi boş, məqsədsiz və cahil sözlərdən ibarət dünyagörüşüdür. Bu cür insanlara Quran əxlaqından bəhs edildikdə, sanki heç eşitməmiş kimi təkəbbür göstərərlər. Allah bu insanların vəziyyətini belə izah edir:

**İnsanlardan elələri də var ki, cahilliklə Allah yolundan döndərmək və onu məsxərəyə qoymaq üçün boş sözləri satın alırlar. Onlar üçün alçaldıcı bir əzab vardır. Ayələrimiz ona oxunduğu zaman sanki onları eşitmir və qulaqlarında ağırlıq (karlıq) varmış kimi təkəbbürlə üz çevirir. Sən də ona acı bir əzabla müjdə ver! (Loğman surəsi, 6-7)**

Ümumi cəmiyyətlə ziddiyyət təşkil etməmək, pis qarşılıq görməkdən qaçmaq, ətrafdakıları da özünə oxşatmaq üçün özünə "müsəlman" adı verən, lakin yuxarıdakı kimi islamla heç bir əlaqəsi olmayan, əslində bunu bilən və bu cür səhv zehniyyətə sahib olan insanlara Quranda "münafiqlər" deyilir.

Münafiqlər, həqiqətən inanmadıqları halda, "iman etdik" deyərək müxtəlif dünya mənfəətlərini qorumağa çalışırlar; onlar da insanlara bu cür azğın zehniyyəti aşılamaqla insanları islamdan və Quran əxlaqından uzaqlaşdırmağa çalışırlar. Beləliklə, ətrafında vicdanını narahat edəcək səmimi

imanlı insanların olmaması üçün çalışırlar. Allah Quranda bu cür insanları belə tanıdır:

**İnsanlardan elələri də var ki, inanmadıqları halda: "Allaha və axirət gününə inandıq", - deyirlər. Onlar, (özlərinə görə guya) Allahı və möminləri aldadırlar. Halbuki yalnız özlərini aldadır və bunu dərk etmirlər. Onların qəlbində xəstəlik (küfr, nifaq) vardır. Allah onların xəstəliyini daha da artırmışdır. Yalan söylədiklərinə görə onlar üçün şiddətli bir əzab vardır. Onlara: "Yer üzündə fitnə-fəsad törətməyin!" - deyildikdə onlar: "Biz yalnız islahedicilərik!" - deyərlər. Bilin ki, əsil fitnə-fəsad törədənlər onlardır. Lakin bunu dərk etmirlər. (Bəqərə surəsi, 8-12)**

Onların batil dinləri Allaha deyil, öz mənfəətlərinə, istəklərinə və nəfsinin arzularına ibadət etmək və onlara xidmət etmək üzərində qurulmuşdur. Bu vəziyyət Quranda belə bildirilir:

**Nəfsinin arzularını ilahlaşdıran kimsəni gördünmü? Onu sənmi qoruyacaqsan? Yoxsa sən onların əksəriyyətinin söz dinləyəcəyini, yaxud düşünəcəyinimi zənn edirsən? Onlar heyvan kimidirlər, hətta daha da azğın bir yoldadırlar.**

**(Furqan surəsi, 43-44)**

Münafiqlərin, iman etmədikləri halda, "iman etdik" deyərək Allahı və möminləri aldada biləcəklərini düşünmələri, möminlərə zərər vermək və onları Allahın bildirdiyi haqq yoldan azdırmağa çalışmaları əlbəttə ki, boşuna olan bir cəhddir.

Quranda münafiqlərin "Allah və din adı ilə" yalan danışdıqlarını, ikiüzlü olmaları və səmimiyyətsiz olduqlarına görə digər inkarçılardan, dinsizlərdən və ateistlərdən daha böyük əzab çəkəcəkləri bildirilir:

**Şübhəsiz, münafiqlər cəhənnəmin ən alt təbəqəsindədirlər. Artıq onlar üçün heç bir yardımçı tapa bilməzsən. (Nisa surəsi, 145)**

# "Bu dövr Quranın nazil olduğu dövrdən çox fərqlidir. Quran ayələri indiki dövrə cavab verirmi?" səhv düşüncəsinə cavab

Ağlı və vicdanı olmayan bəzi ön mühakiməli insanlar Quranın 1400 il əvvəl ərəb cəmiyyətinə xitab etdiyi və bugünkü cəmiyyətlər üçün keçərli olmadığı kimi azğın fikirlərini tez-tez təkrarlayırlar. Halbuki Quran Allah tərəfindən nazil edilən son haqq kitabdır və o gündən sonra yer üzündəki bütün cəmiyyətlər və bütün nəsillər üçündür.

Quran Allahın kəlamıdır, qorunub saxlanılmışdır və heç bir şəkildə təhrif edilməmişdir. Quranın haqq kitab olduğunu göstərən saysız-hesabsız dəlillərdən biri də Quran möcüzələridir. Quranın elmi, riyazi və tarixi möcüzələri Quranın Allah kəlamı olmasının mühüm dəlillərindən biridir.

Bütün bu həqiqətlərə baxmayaraq Qurana şübhə edənlərlə Allah belə buyurur:

**Əgər bəndəmizə (Məhəmmədə) nazil etdiklərimiz barədə şübhəniz varsa, siz də onun kimi bir surə gətirin! Əgər (iddianızda) haqlısınızsa, onda Allahdan başqa bütün şahidlərinizi də çağırın! Əgər bunu bacarmırsınızsa, - heç bacara da bilməzsiniz - onda yanacağı insanlar və daşlar olan, inkar edənlər üçün hazırlanmış oddan çəkinin! (Bəqərə surəsi, 23-24)**

Quranı açıq şüurla oxuyan insan, Quranda izah edilən insanların və cəmiyyətin xüsusiyyətlərinin bu gün də daxil olmaqla, tarixin hər dövründə mövcud olduğunu görər. Din əxlaqından uzaq olan cəmiyyətlərin bütün səhvləri, azğınlıqları Qurani-Kərimdə açıqlanmış, həmin cəmiyyətlərin dinə qarşı reaksiyaları izah edilmiş, xarakter təhlilləri aparılmışdır. Bu təsvir və təhlillər müasir dövrlə tamamilə uyğundur və Quranın bütün dövrlərə xitab etdiyini bir daha təsdiqləyir. Quran əxlaqını yaşamaq üçün oxuyan və bacardığı qədər onu tətbiq etməyə başlayan insan, Quranın həyatın hər anını necə əhatə etdiyini görəcək və Qurana olan inancı gündən-günə artacaqdır.

Möminin qarşılaşacağı hadisələr və bu hadisələrə qarşı necə davranması lazım olduğu Quranda geniş şəkildə təsvir edilmişdir.

İnkarçıların Quranla bağlı ortaya atdıqları müxtəlif batil fikirlər əslində Quranda bildirilən anlayış əksikliyidir. Quranda bildirildiyi kimi, min illər əvvəlki inkarçılar da dini öz zəif ağıllarına görə "... əvvəlkilərin əfsanələri", (Nəhl surəsi, 24) kimi şərh etmişlər. Necə ki, dövrün inkarçıları böyük cahilliklə Peyğəmbərimizdən (s.ə.v) Quranın bəzi hissələrini dəyişdirməsini istəmişlər:

**(Öldükdən sonra) bizimlə qarşılaşacaqlarına ümid etməyənlər özlərinə ayələrimiz açıq-aydın oxunduğu zaman: "Ya bundan başqa bir Quran gətir, ya da onu dəyişdir!" - deyirlər. De ki: "Onu özbaşıma dəyişməyim mənə yaraşmaz. Mən ancaq mənə gələn vəhyə tabe oluram. Rəbbimə asi olacağım təqdirdə, həqiqətən, böyük günün əzabından qorxaram". (Yunis surəsi, 15)**

Ayələrdə bəhs edilən və öz zəif ağılları ilə "Quranın dəyişdirilməsini" istəyən inkarçılar Quranın ilk nazil olduğu dövrdə yaşayan insanlardır. Quran ayələrinə etiraz etmələrinin səbəbi Quran əxlaqının yaşandığı mühitin öz mənfəətlərinə zidd olmasıdır.

Bu gün bəzi insanlar bənzər səbəblərlə Quranın doğru olduğunu vicdanən bildikləri halda ona qarşı çıxırlar.

Lakin bütün bu iradlar, onların irəli sürdüyü böhtan və iddialar boşunadır. Quranda buyurulur: **"Şübhəsiz ki, Quranı Biz nazil etdik və əlbəttə, onu Biz qoruyacağıq!"** (Hicr surəsi, 9) ayəsinə əsasən, Qurani-Kərim Uca Rəbbimiz Allahın himayəsində olan haqq kitabdır. Bu, Allahın insanlara göndərdiyi mesajdır, bundan sonra heç bir vəhy gəlməyəcək. Buna görə də bu gün və yüz illər sonra insanların yeganə qurtuluş yolu Quranda və Peyğəmbərimizin hədislərində bildirilmişdir.

Peyğəmbərimiz bir hədisində belə buyurmuşdur:

**"Sizə iki şey buraxıram. Bunlara əməl etdiyiniz müddətcə heç vaxt azmazsınız: Allahın kitabı və Rəsulunun sünnəsi." (Kütüb-i Sittə, Muhtasarı Tərcümə və Şərhi, Prof. Dr. İbrahim Canan, 2-ci cild, Akçağ Nəşriyyatı, Ankara, səh. 328)**

# “Onsuz da qəlbim təmizdir” səhv düşüncəsinə cavab

“Şüəra” surəsinin 89-cu ayəsində cənnətə gedənlərin **“Ancaq təmiz bir qəlblə Allahın hüzuruna gələndir...”** buyurulur. Halbuki Quranda bildirilən qəlb təmizliyi, müasir cəmiyyətlərin başa düşdüyü təmizlik deyil. “Qəlb təmizliyinin” əhəmiyyətindən yola çıxaraq, “mən insanlara pislik etmirəm, arada kasıblara kömək edirəm, demək ki, Allahın istədiyi əxlaqa sahibəm” demək, özünü aldatmaqdan başqa bir şey deyil.

Çünki Qurana görə təmiz qəlbə sahib olmaq, Allaha üz tutmaq və Ona itaət etmək, Allahdan var gücü ilə qorxmaq, Allahı çox sevmək və ürəkdən iman etmək deməkdir. Ola bilsin ki, bəziləri kasıblara hərdən kömək etməklə, heyvanlara yemək verməklə, qonşularına gülümsəməklə “yaxşı insan” kimi tanına bilər. Və əlbəttə ki, bunlar gözəl xüsusiyyətlərdir. Halbuki cəhənnəmdən xilas olub Allahın rizasını və rəhmətini qazanmağın yolu “yaxşı insan” kimi tanınmaq deyil, Allahın Quranda bildirdiyi kimi yaşayan saleh bir mömin olmaqdır.

Allah Quranda bu şəkildə bildirir:

**Hacılara su verənləri və Məscidi-haramı təmir edənləri, Allaha və axirət gününə iman edib Allah yolunda cihad edənlərlə eyni tutursunuz? Onlar Allah dərgahında eyni deyillər. Allah zalımlar qövmünü doğru yola yönəltməz! (Tövbə surəsi, 19)**

**Yaxşı əməl üzünüzü şərqə və qərbə tərəf çevirməyiniz deyildir. Yaxşı əməl sahibləri o kəslərdir ki, Allaha, axirət gününə, mələklərə, kitablara və elçilərə inanar, mal-dövlətini sevməsinə baxmayaraq onu yaxınlara, yetimlər, yoxsullar, yolda qalanlar, istəyənlər və qulların azad olunması üçün sərf edər, namazı qılar, zəkatı verər, əhd etdikləri zaman əhdlərinə sadiq qalar, xəstəlikdə, darlıqda, çətinlikdə, eləcə də cihad vaxtı səbir edərlər. Onlar sadiqlərdir, əsil müttəqilərdir.**

**(Bəqərə surəsi, 177)**

Qurana görə təmiz qəlbli insan Allaha iman edən, Allahın əmr və qadağalarına ciddi şəkildə tabe olan, Ona təslim olan insandır. İslama görə bundan başqa "qəlb təmizliyi" yoxdur. Quranda "qəlb təmizliyinin" nə olduğu ətraflı şəkildə izah edilmişdir. Buna görə də, qəlbi təmiz olan insan, daim Allahı zikr edən və qəlbi Allahı zikr etməklə rahatlıq tapan şəxsdir. Quranda möminlər bu cür təsvir olunur:

**Onlar iman edən və Allahı zikr etməklə qəlbi rahatlıq tapan kimsələrdir. Bilin ki, qəlb (ancaq) Allahı zikr etməklə rahatlıq tapar. (Rad surəsi, 28)**

Başqa bir ayədə isə möminlərdən bu cür bəhs edilir:

**"O kəslər ki, Allah anıldığı zaman onların qəlbi titrəyər..."**

**(Həcc surəsi, 35)**

Başqa bir ayədə isə möminlərin qəlbinin **"İman edənlərin Allahı anma və Ondan nazil olan (Quran) səbəbilə qəlbinin ürpərmə**"si (Hədid surəsi, 16) bildirilir.

İnsanı mömin edən, Quran əxlaqından həzz almasını təmin edən, Uca Allaha itaətdə sevinc və rahatlıq duymasını təmin edən ən əsas xüsusiyyətlərdən biri də qəlbindəki bu səmimiyyətdir.

Quranda qəlbin bu həssaslığının "Allahın hidayəti" olduğu bildirilir:

**Allah, təşbehli (mütəşabeh), ikili kitab olaraq sözün ən gözəlini endirdi. Rəblərinə qarşı içləri titrəyərək-qorxanların Ondan dəriləri ürpərər. Sonra onların dəriləri və qəlbi Allahın zikrinə (qarşı) yumşalar-sakitləşər. Məhz bu, Allahın yol göstərməsidir, onunla dilədiyini hidayətə çatdırar..." (Zumər surəsi, 23)**

Qısacası, qəlbin təmizliyi, insanı Allahdan uzaqlaşdıran bütün maneələri qəlbdən təmizləməsi deməkdir. Belə bir insan dünyəvi istəklərindən,

xudbinlikdən, qorxu və güvənsizlikdən uzaqdır. Allahdan başqa varlıqlara bağlanmaqdan, onlara qarşı sevgi duymaqdan qurtular.

"Qəlbim təmizdir, dinə uymasam da eybi yoxdur" səhv düşüncəsini irəli sürənlər, Allahı və möminləri aldatdıqlarını düşünə bilərlər, halbuki əslində özlərini aldadırlar. Bu ifadə ancaq ibadətlərini yerinə yetirməkdən qaçan və səhv həyat tərzini müsəlman kimi göstərməyə çalışan bir insanın səmimiyyətsizliyidir. Ancaq bu cür qeyri səmimi davranışlar nə Allah qatında, nə də möminlərin nəzərində qəbul edilməz.

# "Mən hələ gəncəm, din əxlaqını sonra yaşayaram" səhv düşüncəsinə cavab

Bu gün cahil cəmiyyətin həyat tərzindəki diqqətsizlik, biganəlik psixologiyası bəzi insanların din anlayışında da özünü göstərir. Bu səhv anlayışa görə, islam dini qocaların, orta yaşlıların, ara-sıra evlərə gəlib mövlud oxuyan hocaların və ya cümə günləri Yasin oxuyan nənələrin dinidir. Bu batil anlayış nəticəsində din; insanların ölümə yaxın olduğu vaxtda və ya kədər, sıxıntı anlarında ehtiyac duyduqları rahatlıq, hüzur və təsəlli vasitəsi olduğu düşünülür. Bu səhv məntiqə görə, din əxlaqını gənc yaşda, yəni dünya nemətlərindən bəhrələnə biləcəyi bir zamanda yaşamağa başlamaq məqbul deyil. Əgər insan bütün bunlara nəzərən dinə olan inancını və hörmətini qoruya bilibsə, edəcəyi ən yaxşı əməl onu sonrakı həyatına təxirə salmaq olar.

Şübhəsiz ki, bu, son dərəcə səhv düşüncədir. Quranda bildirilən həqiqi islam yalnız qocalanda tətbiq olunacaq bir din deyil; əksinə, insanların xeyirlə şəri ayırd etməyə başladığı yaşdan etibarən yaşayacaqları gözəllik və qurtuluşdur.

Yaşlılıq, insanların çox vaxt xəstəliklər və fiziki zəifliklər səbəbi ilə bir çox acizliklər yaşadığı dövrdür. Gənclik, Allahın insanlara bəxş etdiyi ən böyük nemətlərdən biridir. İnsanın həm fiziki, həm də zehni olaraq ən yüksək qabiliyyətə sahib olduğu dövrdə Allahı unutmaq, ən böyük nankorluqdan biridir. Allahın Quranda vacib buyurduğu, yaxşılığı əmr edib pislikdən çəkindirmək, islam əxlaqını insanlara izah etmək, Allahın şəninə təriflər demək kimi çox mühüm hökmləri gənc, güclü və sağlam ikən yerinə yetirməyən bir insan qocalıqda bunları necə edə bilər?

Allah Quranın müxtəlif yerlərində iman edən və Ona bağlı olan gənclərdən tərifləyərək bəhs edir:

**Bir vaxt gənclər mağaraya sığınaraq: "Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və bizə bu vəziyyətdən çıxış yolu göstər!" - demişdilər. Beləliklə, mağarada illərlə onların qulaqlarına vurduq. Sonra da iki qrupdan hansının, (yuxulayıb) qaldıqları müddəti daha düzgün hesablayacağını bilmək (görmək) üçün onları oyandırdıq. Biz onların xəbərini sənə**

**olduğu kimi danışırıq. Həqiqətən, onlar Rəbbinə iman etmiş gənclər idi. Biz də onların hidayətini artırdıq. Onların qəlbinə qüvvət (cəsarət) verdik. Bu zaman onlar (hökmdarın qarşısında) ayağa qalxaraq belə demişdilər: "Bizim Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz Ondan başqa heç bir ilaha dua etmərik! Yoxsa, haqdan uzaq bir şey söyləmiş olarıq. (Kəhf surəsi, 10-14)**

Hz. Musanın dövründə qövmünün bəzi "gənclərindən" başqa heç kəs ona inanmadı:

**Firon və qövmünün işgəncə verməsindən qorxduqları üçün öz qövmündən Musaya yalnız gənc bir dəstə iman etdi. Çünki Firon həqiqətən, o yerin hökmdarı və həddi aşanlardan idi.**

**(Yunis surəsi, 83)**

Quranda adı keçən peyğəmbərlərin çoxu gənc yaşlarında bu mühüm məsuliyyəti öz üzərinə götürmüşlər. Hz. İbrahim də bu mübarək insanlardan biri idi. Hələ gənc ikən müxtəlif bütlərə ibadət edən və Allaha şərik qoşan qövmü ilə fikri mübarizəyə başlamış və insanlar arasında tanınmışdır. İş o yerə çatdı ki, qövmünün lider inkarçıları: **"İbrahim deyilən bir gəncin onları (bütləri) ələ saldığını eşitmişdik", – dedilər."** (Ənbiya surəsi, 60).

Qurana görə insan əqli cəhətdən yetkinləşib şüuru açıldığı andan etibarən Quran əxlaqını yaşamaqda məsuliyyət daşıyır. Gənc ikən "gələcəkdə dini yaşayaram" deyərək din əxlaqından uzaq həyat sürməyə razı olan insanın beş dəqiqə sonra yaşayacağına zəmanət yoxdur. Allah bu mövzu ilə bağlı belə buyurur:

**Həqiqətən, qiyamət haqqındakı məlumat Allah yanındadır. Yağışı O yağdırır. Bətnlərdə olanı da O bilir. Heç kim sabah nə qazanacağını bilə bilməz. Heç kim harada öləcəyini də bilə bilməz. Şübhəsiz ki, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır. (Loğman surəsi, 34)**

**Yoxsa o məmləkətlərin əhalisi, əzabımızın onlara gecə yatarkən gəlməyəcəyindən əmin idilərmi?! Yaxud o məmləkətlərin əhalisi, əzabımızın onlara gündüz əylənərkən gəlməyəcəyindən əmin idilərmi?! Yoxsa onlar Allahın məkrindən (əzabından) əmin idilərmi?! Ziyana uğrayan qövmdən başqası Allahın məkrindən əmin ola bilməz. (Əraf surəsi, 97-99)**

Gənc, güclü və sağlam ikən Allahın dəvətinə cavab verməyənlərin axirətdəki aqibəti Quranda belə bildirilir:

**O gün işlər çətinləşər və onlar səcdə etməyə dəvət olunarlar, lakin onların buna gücü çatmaz. Gözləri yerə zillənmiş bir vəziyyətdə onları zillət bürüyər. Halbuki onlar sağlam ikən səcdə etməyə dəvət olunurdular. (Qələm surəsi, 42-43)**

İnsanlar arasında "gənc ikən həyatımı yaşayım, ölməmişdən əvvəl tövbə edərəm, heç bir günahım qalmaz" kimi batil inanc da vardır. Ümumiyyətlə cəhalətdən və din əxlaqından uzaq həyatdan qaynaqlanan belə bir batil zehniyyət Allaha qarşı böyük səmimiyyətsizlikdir. Çünki bu sözün əsl mənası belədir: "İndi mən hər cür günaha girərəm, hər cür pislik edərəm və istədiyim kimi Allahın hədlərini istədiyim kimi pozaram. Daha sonra, ömrümün sonuna yaxın tövbə edib axirətimi xilas edərəm". Halbuki, "qəlbdə gizli olanı bilən" Allah, belə bir qeyri-səmimi zehniyyətin uğur qazanmayacağını və bu cür tövbənin də keçərli olmayacağını xəbər vermişdir:

**Yoxsa günah işlər görməyə davam edib və nəhayət ölümü çatdığı zaman: "Mən indi tövbə etdim", - deyən kimsələrin və inkar edən olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Onlar üçün şiddətli bir əzab hazırlamışıq. (Nisa surəsi, 18)**

Bu ağılsız düşüncəyə sahib olan insan Allahı layiqincə təqdir edə bilmədiyi üçün Allahın onu tövbə edərək bağışlayacağını və cənnətə aparacağını düşünür. Gündəlik həyatında etdiyi kiçik işlərlə Uca Rəbbimiz olan Allahı aldada biləcəyini düşünür (Allahı tənzih edirik). Ancaq axırda aldanan və məyus olan əlbəttə ki, özü olacaq. Ölüm onu gözlənilməyən bir anda yaxalayar

və geriyə dönüş olmaz. Amma buna baxmayaraq, həyatında sahib olduğu hiyləgər zehniyyəti özü ilə daşıyar. Bu təkəbbürlü, lakin ümidsiz çırpınma Quranda belə bildirilir:

**Kaş günahkarlar Rəbbinin hüzurunda başlarını aşağı salıb: "Ey Rəbbimiz! Gördük və eşitdik. Elə isə, bizi (dünyaya) geri qaytar ki, yaxşı işlər görək. Biz yəqinliklə iman etdik", - deyərkən onları görəydin. Əgər Biz istəsəydik, əlbəttə, hər kəsə hidayət verərdik. Lakin "Cəhənnəmi bütövlüklə cinlər və insanlarla dolduracağam!" sözü Mənim tərəfimdən qərara alınmışdır. (O gün onlara belə deyiləcəkdir:) "Bu gününüzlə qarşılaşacağınızı unutduğunuza görə dadın əzabı! Şübhəsiz, biz də sizi unutduq. Etdiyiniz əməllərə görə dadın əbədi əzabı! (Səcdə surəsi, 12-14)**

**Nəhayət, onlardan (müşriklərdən) birinə ölüm gəlib çatdığı zaman belə deyər: "Ey Rəbbim! Məni (dünyaya) geri qaytar! Ola bilsin ki, tərk etdiyim o yerdə yaxşı bir iş görüm". Xeyr, onun dediyi boş bir sözdür. Onların qarşısında (yuxudan) oyanacaqları günə qədər maneə vardır. (Muminun surəsi, 99-100)**

Allah iman edənlərin geri dönüşü olmayan belə bir vəziyyətə düşməmələri üçün necə davranmalı olduqlarını müxtəlif ayələrində bu cür açıqlayır:

**Sizdən birinizin ölümü gəlib çatmazdan əvvəl sizə verdiyimiz ruzidən infaq edin ki, sonra o: "Ey Rəbbim! Kaş yaxın bir vaxta qədər məni (ölümümü) təxirə salaydın. Beləcə, mən də sədəqə verər və salehlərdən olardım!" - deməsin. Allah əcəli çatan heç kimin ölümünü təxirə salmaz. Allah sizin etdiklərinizdən xəbərdardır. (Münafiqun surəsi, 10-11)**

**Ey iman edənlər. Allahdan layiqincə qorxun və yalnız müsəlman olaraq can verin! (Ali İmran surəsi, 102)**

**Ey iman edənlər, Allahdan qorxun! Hər kəs sabah (axirət) üçün nə hazırladığına baxsın! Allahdan qorxun! Şübhəsiz ki, Allah sizin etdiklərinizdən xəbərdardır. (Həşr surəsi, 18)**

Diqqət yetirsəniz, indiyə qədər bəhs etdiyimiz zehniyyət Allahı tamamilə inkar etmək deyil, "Allahı lazım olduğu kimi qiymətləndirə bilməmək" və nəticədə "Allahdan lazım olduğu kimi qorxmamaq və ondan çəkinməmək" üzərində qurulub. Allahın varlığını qəbul etmək, Onun sonsuz qüdrətini və ağılını, elmini, hökmranlığını və hər an hər şeyə hakim olduğunu bilmək, Onun əzabına qarşı heç kimin zəmanəti olmadığını bilmək, Ondan gücü çatdığı qədər qorxub çəkinmək tamamilə fərqli şeylərdir. Şeytan da Allahın varlığına tam əmindir. Lakin o, üsyankar olma qəflətinə düşmüşdür. Quranda Allahın varlığını qəbul edən, lakin Onu layiqincə təqdir etməyən və asi olan insanlardan belə bəhs edilir:

**De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqların və gözlərin sahibi kimdir? Ölüdən dirini, diridən də ölünü çıxardan kimdir? Hər cür işi nizamlayan kimdir?" Onlar: "Allah!" - deyə cavab verəcəklər. O zaman de ki: "Elə isə Allahdan çəkinmirsinizmi?! O, sizin həqiqi Rəbbiniz olan Allahdır. Haqq ortadan qalxdıqdan sonra zəlalətdən başqa nə qalar?! Bəs necə olur ki, (haqdan) döndərilirsiniz? Beləcə, Rəbbinin fasiqlər haqqındakı "Onlar iman etməzlər!" sözü gerçək oldu.**

**(Yunis surəsi, 31-33)**

**Əgər onlara özlərini kim yaratdı deyə sual versən, əlbəttə: "Allah!" - deyəcəklər. Bəs necə olub (haqq yoldan) döndərilirlər?! (Zuxruf surəsi, 87)**

# “Əgər Quran əxlaqını mənimsəsəm, bunun müqabilində məndən nə gözlənilir?” səhv düşüncəsinə cavab

Bu sual əslində cahil cəmiyyət üzvlərinin min illərdir din əxlaqını onlara izah edən möminlərə verdiyi klassik bir sualdır.

Allahın dinini təbliğ edənlərin öncülləri, əlbəttə peyğəmbərlərdir. Və şübhəsiz ki, peyğəmbərlər ən əxlaqlı, ən səmimi insanlardır. Lakin buna baxmayaraq, onların dini təbliğatları belə bəzi insanlar tərəfindən şübhə ilə qarşılanmış və bu fəaliyyətlərin arxasında həmişə mənfəət axtarılmışdı. Şübhəsiz ki, bu insanların anlayışsızlığı, mübarək peyğəmbərlərin üstün ağıl və əxlaqını dərk edə bilməmələri ilə bağlıdır. Peyğəmbərlər Allahın onlara verdiyi “dinə dəvət” vəzifəsini yerinə yetirərkən həmişə bu iftirayla qarşılaşmışlar. Quranın bir çox ayəsi bu əsassız iftiraya diqqət çəkir. Digər tərəfdən, bütün peyğəmbərlərin cavabı həmişə eyni olmuşdur:

**Əgər (haqdan) üz çevirsəniz, onsuz da mən sizdən heç bir mükafat istəmirəm. Məni yalnız Allah mükafatlandırar. Mənə, müsəlmanlardan olmağım əmr olunmuşdur". (Yunis surəsi, 72)**

**Bunun əvəzində mən sizdən heç nə istəmirəm. Mənim mükafatımı yalnız aləmlərin Rəbbi verəcəkdir.**

**(Şuəra surəsi, 127)**

Eyni vəziyyət Allahın qanunu və imtahanı olaraq Peyğəmbərimizin (s.ə.v) də başına gəlmiş, bu mübarək insan vəzifə, mövqe, maddi güc və sərvət qazanmaq, hakimiyyətdə olmaq məqsədilə dindən istifadə etməklə, hətta xalqı həqiqi dinindən ayıraraq öz ətrafında qüvvə toplamağa çalışmaq kimi ağlasığmaz və əsassız böhtanlarla ittiham edilmiş. Buna qarşılıq olaraq Peyğəmbərimizə (s.ə.v), bu böhtanlara qarşı əvvəlki elçilərin verdiyi cavabı verməsi əmr edilmişdir:

**De: "Mən bunun müqabilində sizdən heç bir əvəz istəmirəm. Yalnız Rəbbinə doğru bir yol tutmaq istəyən kimsələr olmalarını istəyirəm". (Furqan surəsi, 57)**

**"... De: "Mən sizdən bunun müqabilində sevgidən başqa heç bir mükafat istəmirəm ..." (Şura surəsi, 23)**

Ancaq unutmaq olmaz ki, dini izah etmək təkcə peyğəmbərlərə məxsus bir vəzifə deyil. Dini izah etmək camaat arasında bəzən yalnız peyğəmbərlərin vəzifəsi kimi qəbul edilsə də, doğru yola dəvət etmək, yaxşılığı tövsiyə edib pislikdən çəkindirmək, islama və Qurana dəvət etmək bütün möminlərə vacib olmuşdur.

Təbliğ, eynilə namaz qılmaq və ya oruc tutmaq kimi yerinə yetirilməli olan bir ibadətdir. Bu səbəblə Quranda bu ibadət möminlərin əsas xüsusiyyətlərindən sayılır:

**Mömin kişilər və mömin qadınlar da bir-birlərinin dostudurlar. Onlar yaxşı işləri əmr edər, pis işləri qadağan edər, namazı qılar, zəkatı verər, Allaha və elçisinə itaət edərlər. Allah onlara mərhəmət edəcəkdir. Şübhəsiz ki, Allah yenilməz qüvvət və hikmət sahibidir. (Tövbə surəsi, 71)**

Bir insana təbliğ edilməsindəki əsas məqsəd, Allahın bu əmrini yerinə yetirmək və o insanın axirət həyatını xilas etməkdir. Yoxsa səmimi müsəlmanlar heç kimin malına, puluna, gözəlliyinə, imkanlarına ehtiyac duymazlar. İslam, Allahın haqq dinidir və onu ən gözəl şəkildə qoruyan da Allahdır. Allah Quranda dinini digər dinlərdən üstün edəcəyini bu şəkildə vəd edir:

**Müşriklərin xoşuna gəlməsə də, onu (İslamı) bütün dinlərdən üstün etmək üçün elçisini hidayət yolu və haqq din ilə göndərən Odur. (Tövbə surəsi, 33)**

Möminin izah etdiklərinə və ya etdiyi fədakarlıqlara görə qarşılıq və ya mükafat istəməsi ağlasığmazdır. Çünki belə bir hərəkət etmək artıq onun dediklərinə ziddir. Allah Quranda dinini öz mənfəətləri üçün istifadə etmək istəyənləri şiddətlə qınayır:

**Onlar az bir dəyər (fani dünya malı) müqabilində Allahın ayələrini satdılar. Sonra da (insanları) Allahın yolundan döndərdilər. Onların etdiyi əməllər necə də pisdir! (Tövbə surəsi, 9)**

Halbuki, bütün ibadətlər kimi din əxlaqını izah etmək vəzifəsini də, yalnız Allahın rizasını qazanmaq məqsədilə yerinə yetirən həqiqi möminlər üçün bu cür bəsit maddi mənfəət gözləməsindən söhbət gedə bilməz. Möminlərin bu xüsusiyyəti Quranda belə izah edilir:

**"... Allahın ayələrini ucuz bir qiymətə satmazlar (dəyişdirməzlər). Onlar üçün Rəbbi yanında mükafatları vardır..." (Ali İmran surəsi, 199)**

Allah Quranda bu səmimi insanlara tabe olmağa belə diqqət çəkir:

**Sizdən heç bir əvəz istəməyən və doğru yolda olan bu kimsələrə tabe olun! (Yasin surəsi, 21)**

# “Niyə möminlər yeni tanış olduqları insana qarşı bu qədər qayğıkeş və sevgi dolu davranırlar?” deyənlərə cavab

Sevgi digər feili əməllər kimi zorla əldə edilən və ya insanın iradəsi ilə formalaşan hiss deyil. Yalnız Allahın insanın qəlbinə verməsi ilə yaranır. Bir insana qarşı sevgi hissi bəsləmək üçün onun qeyri-adi xüsusiyyətlərə və ya üstün qabiliyyətlərə malik olması şərt deyil. İmanlı bir insan hər şeydə və hər kəsdəki yaxşı və gözəl cəhətləri hər detalına qədər müəyyən etmə, Allahın yaratdığı gözəllikləri adi insanlardan daha həssas şəkildə qavrama qabiliyyətinə malikdir. Buna görə də, qarşı tərəfin yaxşı və gözəl tərəflərini, gizli xüsusiyyətlərini digər insanlara nisbətən daha tez və aydın görüb ona uyğun davranır.

Qarşıdakı şəxs hələ islamı yaşamayan biri ola bilər, ancaq Quran əxlaqına uyğun bəzi xüsusiyyətlər (təbiilik, səmimiyyət, təmizlik, gözəllik, zəka, dostluq və s.) müsəlmanların qəlbində ona qarşı sevgi yaradar. Bu insanın fərqinə varmadan daşıdığı gözəl əxlaqi keyfiyyətləri də ola bilər. Bu xüsusiyyətlər ona qarşı səmimi sevgi hiss edilməsi üçün kifayətdir. Çünki bunların hamısı əslində Allahın yaratdığı gözəlliklərdir. Buna görə də, göstərilən sevgi və iltifat əslində insanın özünə deyil, Allaha olan sevgisidir.

Bundan əlavə, Allah möminlərin qəlbinə gözəlliklərə qarşı böyük sevgi ilham edər. Allah Quranda hz. Yəhya haqqında bəhs edərkən, **“Biz də öz qatımızdan ona sevgi və təmizlik hissi verdik...”** (Məryəm surəsi, 13) Eyni “sevgi hissi” peyğəmbərlərin yolu ilə gedən bütün möminlərə də aiddir. Məryəm surəsinin 96-cı ayəsində **“Şübhəsiz, Rəhman (olan Allah) iman edib yaxşı işlər görənlərin qəlbində bir-birinə qarşı sevgi yaradacaqdır.”** deyə xəbər verilir. Mömin, bu sevginin ifadəsi olaraq qarşıdakı insana həmişə hörmət bəsləyər, alçaldıcı və incidən hərəkətlərdən çəkinər.

Bir sözlə, möminlərin saxta və qeyri-səmimi yanaşmaları yoxdur. Qarşı tərəfin marağı və həqiqəti öyrənmək istəyi (əgər o, həqiqətən də səmimidirsə) artıq onun şüur sahibi olduğuna işarədir ki, bu da çox müsbət cəhətdir. Dini öyrənmək istəyən şəxsin heç bir art niyyəti olmaması, səmimi hisslərlə yanaşması belə, ona qarşı sevgi və şəfqət hissi duymaq üçün kifayətdir.

Mömin sevmədiyi birini sevirmiş kimi davrana bilməz. Əgər insan sevgiyə layiq deyilsə, ona zorla, süni şəkildə sevgi göstərməz. Digər tərəfdən cahil cəmiyyət əxlaqını yaşayan bəzi insanlar sevgi adı altında digər insanlarla hər hansı mənfəət bağı qururlar. Bu mənfəət əlaqəsi mütləq maddi ölçüdə inkişaf etməz. Qarşı tərəf öz eqosunu təmin edə bilərsə, artıq, vərdişə çevrilən bağlılıq formalaşar. Bu mənfəət, vərdiş və eqoist bağlılıqdan yaranan qarışıq hisslər Quranda bildirildiyi kimi möminlər arasında yaşanan sevgi və münasibət əlaqələrindən son dərəcə fərqlidir. Dünya mənfəətləri üzərində qurulan bu cür münasibətlərin aqibəti Quranda belə bildirilir:

**İbrahim dedi: "Siz yalnız dünya həyatında aranızdakı sevgi (dostluq) uğuruna Allahı qoyub bütləri ilah qəbul etdiniz. Sonra qiyamət günü bir-birinizi inkar edəcək və bir-birinizə lənət oxuyacaqsınız. Sizin sığınacağınız yer cəhənnəmdir və sizin heç bir yardımçınız olmayacaqdır." (Ənkəbut surəsi, 25)**

İnsanlar arasında sevginin qarşısını alan ən mühüm amil, qısqanclıq və təkəbbürdür. Cahiliyyə cəmiyyətində çox tez-tez rast gəlinən bu duyğular, insanların, başqalarının müsbət cəhətlərini görməsinə və ondan həzz almasına mane olur. Halbuki iman edən şəxs özündə olduğu kimi digər insandakı müsbət keyfiyyətlərin əslində Allaha aid olduğunu bildiyi üçün onları təqdir etməkdən və tərifləməkdən çəkinməz.

Məhz buna görə möminlərlə yeni tanış olan biri, cahil cəmiyyətdə gördüklərindən çox fərqli bir mühitdə olduğunu anlayar. O vaxta qədər cahiliyyə əxlaqı ilə insanların böyük əksəriyyətində görülən qərəzli, hörmətsiz, kobud, laqeyd, mənfəətçi, ikiüzlü, kinli, hiyləgər, qeyri-səmimi, süni davranışları qəbul etmiş və bunlara öyrəşmişdir. Bu səbəbdən ona səmimiyyətlə yaxınlaşan, daha əvvəl özünün belə anlamadığı gözəl və müsbət cəhətlərini görən, onu bu cəhətləri ilə qiymətləndirən insanlarla birlikdə olmaq indiyə qədər yaşamadığı bir nemətdir. Buna görə də, Allahın saleh möminlərə bəxş etdiyi bu nemətin əhəmiyyətini dərk etməli və cahiliyyə cəmiyyətində heç vaxt yaşamadığı səmimiyyəti, dostluğu və sevgini ona yaşatdığına görə Uca Allaha daim şükür etməlidir.

# "Möminlər haqqında yayılan pis xəbərlərin həqiqət tərəfi varmı?" sualına cavab

Möminlər: **"Allahdan başqa bir hakimmi istəməliyəm?! Halbuki sizə Kitabı təfsilatlı olaraq nazil edən Odur..."** (Ənam surəsi, 114) ayəsində də bildirildiyi kimi, Allahı **"hakim"** (Onun hökmlərinə uymaq) təyin etmək məcburiyyətindədirlər. Möminlərdən başqa insanlardan gələn xəbərlərin necə şərh ediləcəyi Allahın hökmünə, yəni Qurana baxılaraq qərar veriləcək bir məsələdir. Quranda verilən meyar belədir:

**Ey iman edənlər! Əgər bir fasiq sizə bir xəbər gətirərsə, dərhal (onun doğru olub-olmadığını) araşdırın! Yoxsa, bilmədən bəzi insanlara pislik etmiş olarsınız və etdiyiniz əmələ görə peşmançılıq çəkərsiniz. (Hucurat surəsi, 6)**

Allah ancaq iman edənləri etibarlı və sözlərinə etimad ediləcək kimsələr olaraq bildirmişdir. Quranda bildirildiyi kimi, **"fasiqlərin"** sözləri və hərəkətləri etibarsızdır. **"Fasiq"** hərfi mənada **"Allahın əmrlərini yerinə yetirməyən, yolunu azmış və Allaha qarşı üsyan etmiş şəxs"** deməkdir. Bu cür insanların çatdırdıqları xəbərin doğruluğunu öyrənmək üçün ayədə **"ətraflı şəkildə araşdırın" əmri** verilir. Odur ki, hər möminin bu cür insanların yaydığı xəbərlərə dərhal inanmamağı, xüsusilə böhtan və ya yalan ola biləcək hadisələrə qarşı diqqətli olması son dərəcə vacibdir.

Hadisənin daha mühüm tərəfi isə tarix boyu bütün möminlərin, cahil cəmiyyətinin rəhbərləri tərəfindən müxtəlif böhtanlara məruz qalmasıdır. Quranda peyğəmbərlərin hekayələrinin əksəriyyətində kafir qövmün başçılarının möminlərə atdığı böhtanlardan bəhs edilir. Və qövmün inkarçılarından bu cür reaksiya görməyən möminlər yoxdur və bu reaksiyaları görmək əslində möminliyin əlamətidir.

İnkarçı liderlərin möminlərə qarşı etdikləri bu cür hərəkətlərin başqa bir maraqlı xüsusiyyəti də vardır. Bu insanlar heç vaxt **"Biz Allahı tanımırıq və bu səbəbdən biz Onun əmrlərinə dəvət edən möminlərə qarşıyıq"** deməzlər.

Əksinə, bu insanların atdığı iftiraları özlərinin doğru yolda, möminlərin isə səhv yolda olması şəklindədir. Özlərinin həqiqətən Allaha inandıqlarını, lakin möminlərin Onun adına yalan uydurduqlarını, dünyəvi mənfəətlər güddüklərini irəli sürərək iftira atarlar. Möminlərə atılan böhtanlar Quranda ətraflı şəkildə izah edilir. Hz. Musa və qardaşı hz. Haruna **"onlar yer üzündə hökmranlıq axtarırlar."** (Yunis surəsi, 78). Hz. Nuh da eyni şəkildə **"üstünlük əldə etmək"** (Muminun surəsi, 24) ilə ittiham olunurdu.

Kafirlər hz. Nuha **"Dəli olan bir adam"** (Muminun surəsi, 25) sözləri ilə böhtan atmışdı. Hz. Səmudu isə **"çox yalan danışan, təkəbbürlü, harınlamış"** (Qəmər surəsi, 25) biri kimi tanıtmağa çalışmışdılar. Hz. Musa və hz Məhəmməd də **"dəlilik"** ilə ittiham olunmuşdu (Şüəra surəsi, 27 və Hicr surəsi, 6). Yenə bir çox peyğəmbərə **"sehrbaz"** (Yunis surəsi, 2 və Sad surəsi, 4), Firon hz. Musaya böhtan ataraq: **"O, ya sehrbazdır, ya da dəlidir"** (Zəriyət surəsi, 38-39) demişdir.

**"Yalançılıq"** tarix boyu möminlərə atılan böhtanlardan biridir (Əraf surəsi, 66 və Hud surəsi, 27). Şübhəsiz ki, bunların hamısı inkarçıların çirkin əxlaqının və ağılsız olmalarının məhsulu olan, həqiqətlə heç bir əlaqəsi olmayan böhtanlardır. Tarix boyu yaşamış bütün peyğəmbərlər və dindar möminlər inkarçıların çirkin böhtanlarından münəzzəhdirlər.

Ancaq unutmaq olmaz ki, bu cür böhtanlar hər dövrdə möminlərə qarşı atılmışdır. Möminlərə atılan böhtanlar ümumiyyətlə məlumatsız insanların ağlında şübhə yaratmaq məqsədi daşıyır. Buna görə də, Allaha iman edən insanlar haqqında deyilən pis sözlər, atılan iftira və yalanlarla qarşılaşdıqda, vəziyyətin əslini bilməyən insanlar səmimi şəkildə müsbət düşünməlidirlər.

Allah, keçmişdə yaşamış müsəlmanları bu mövzuda bir örnək verərək xəbərdar edir. Peyğəmbərimizin zövcələrindən birinə atılan böhtan qarşısında möminlərin göstərməli olduğu münasibət Quranda bu şəkildə açıqlanır:

**Kaş onu (iftiranı) eşitdiyiniz zaman mömin kişi və qadınlar qəlbində yaxşı şeylər düşünərək: "Bu, açıq-aydın bir iftiradır!" - desəydilər. (Nur surəsi, 12)**

# "Əgər Quran əxlaqı insanlara bu qədər gözəl və mükəmməl bir quruluş vəd edirsə, niyə bu qədər müxaliflər var?" səhv düşüncəsinə cavab

İnsanlar üçün ən rahat, ən fərah həyat tərzi və ən mükəmməl əxlaqi və ictimai model Quranda təsvir edilmişdir. Dinin mahiyyəti, Allaha səmimi qəlbdən təslim olmaq, Onun əmrlərinə tam itaət etmək, hər şeyin Allahın iradəsi və nəzarəti altında olduğunu dərk edərək yaşamaqdan ibarətdir. Məhz buna görə də, islam əxlaqının bəxş etdiyi gözəlliklər, rahatlıq və nemətlərdən, mükəmməl həyat tərzindən asılı olmayaraq təkəbbür, eqoistlik və paxıllıq kimi əxlaq pozğunluğu olan kəslər vicdanları bunu qəbul etsə də, möminlərlə birlikdə olsalar da, iman etmək və onlarla birlikdə olmaq istəməzlər. Onların vəziyyəti Quranda belə açıqlanır:

**Daxilən buna əmin olduqları halda, zülm və təkəbbürləri səbəbilə onları inkar etdilər. Fitnə-fəsad törədənlərin aqibətinin necə olduğuna bir bax! (Nəml surəsi, 14)**

**Ona: "Allahdan qorx!" – deyildikdə lovğalıq onu günaha vadar edər. Ona cəhənnəm kifayətdir. Ora nə pis məskəndir!**

**(Bəqərə surəsi, 206)**

Quranda "müşrik əxlaqı" olaraq bildirilən bu səhv məntiqə sahib olan insanlar, Allah və Quran əxlaqını yaşamağa dəvət edildikləri zaman nifrətlə dolduqları bildirilir:

**Onlara: "Rəhmana səcdə edin!" - deyildiyi zaman onlar: "Rəhman nədir? Bizə əmr etdiyin şeyə səcdəmi edəcəyik?" – deyərlər. Bu, onların nifrətini daha da artırar. (Furqan surəsi, 60)**

İnkarçıların Allahın ayələrinə, dolayısilə islama və möminlərə qarşı kin və nifrətləri Quranın bir neçə ayələrində bu şəkildə bildirilir:

**Allah inkar edənləri qəzəbli olduqları bir halda püskürtdü. Onlar heç bir xeyir əldə edə bilmədilər. Döyüşdə Allah möminlərə kifayət etdi. Allah yenilməz qüvvət sahibidir, qüdrətlidir.**

**(Əhzab surəsi, 25)**

**Allah tək olduğu (vəhdaniyyəti) anıldığı zaman axirətə inanmayanların qəlbi nifrətlə dolar. Lakin Ondan başqaları anıldığı zaman onlar dərhal sevinərlər. (Zumər surəsi, 45)**

İnkarçıların təkəbbür və eqoistliyindən doğan bu kin və nifrət onların möminlərə qarşı hər zaman müxalif olmasına səbəb olur. Qarşılarında tək bir mömin görməkdən belə narahat olan bu insanlar möminləri öz yolundan çıxarmağa və öz cahil sisteminə qaytarmağa çalışırlar. Möminlərin çətinlik və sıxıntı yaşamasını, hətta onların yox olub getdiyini görmək istəyirlər. Təbii ki, bunlar heç vaxt baş verməyəcək, çünki Allah möminləri əvvəldən qələbə və zəfərlə yaratmışdır. İnkarçıların əbəs yerə etdikləri cəhdlər Quranda belə bildirilir:

**Ey iman edənlər, sizdən olmayanları sirdaş tutmayın! Onlar sizə pislik etməkdən əl çəkməz və sizin çətinliyə düşməyinizi istəyərlər. Düşmənçilikləri də ağızlarından (çıxan sözlərdən) aşkar olur. Ürəklərində gizlətdikləri (düşmənçilik) isə daha böyükdür. Əgər düşünüb anlayırsınızsa, ayələri artıq sizə izah etmişik. (Ali İmran surəsi, 118)**

**Sizə bir xeyir dəyərsə, bu onları qəmgin edər, ancaq sizə bir zərər toxunarsa, onlar buna sevinərlər. Əgər səbir edib qorunsanız, onların hiyləsi sizə heç bir zərər yetirməz. Həqiqətən, Allah onların etdiklərini (elmi ilə) əhatə edir. (Ali İmran surəsi, 120)**

**Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsiləcək, əlləri və dilləri ilə sizə pislik edəcəklər. Onlar sizin haqqı inkar etməyinizi istəyirlər. (Mumtəhənə surəsi, 2)**

Quran əxlaqını yaşayaraq cahil modeldən ayrılanlar, ətrafdakı insanları narahat etdiyi bir həqiqətdir. O günə qədər oğurluğu, faizi, yoxsul və məzlum xalqı istismar etməyi özlərinə qazanc vasitəsi kimi istifadə edənlər; müxtəlif məqam və vəzifələrdən öz mənfəətləri üçün istifadə edənlər; fahişəliyi və əxlaqsızlığı özlərinə həyat tərzi və ya dolanışıq forması halına gətirənlər; bəzi təhrif edilmiş ideologiyaların köləsi olanlar, təbii ki, islamın bəxş etdiyi sosial ədalətə, dürüstlüyə, haqq və bərabərliyə əsaslanan həyat tərzini qəbul etmək istəməzlər. Belə bir əxlaqi modelin yayılmasının və inkişafının qarşısını almaq, hətta onu məhv etmək üçün hər cür vasitədən istifadə edərlər.

Bu saydıqlarımızdan başqa, daha əvvəl qeyd etdiyimiz münafiqlərdən bəziləri kafirləri möminlərə qarşı təhrik etmək, onlar haqqında məlumat toplamaq və aralarında nifaq salmaq üçün əvvəlcə möminlərin arasına daxil olarlar. Öz ağıllarına görə fitnə çıxarmağa, ixtilaf salmağa və dinin hökmlərini təhrif etməyə çalışarlar:

**İnsanlardan elələri də var ki, inanmadıqları halda: "Allaha və axirət gününə inandıq", - deyirlər. Onlar, (özlərinə görə guya) Allahı və möminləri aldadırlar. Halbuki yalnız özlərini aldadır və bunu dərk etmirlər. Onların qəlbində xəstəlik (küfr, nifaq) vardır. Allah onların xəstəliyini daha da artırmışdır. Yalan söylədiklərinə görə onlar üçün şiddətli bir əzab vardır. Onlara: "Yer üzündə fitnə-fəsad törətməyin!" - deyildikdə onlar: "Biz yalnız islahedicilərik!" - deyərlər. Bilin ki, əsil fitnə-fəsad törədənlər onlardır. Lakin bunu dərk etmirlər. (Bəqərə surəsi, 8-12)**

Münafiqlər inkarçılarla əməkdaşlıq edərək hiyləgərcəsinə mübarizələrini davam etdirirlər. Qurani-Kərimin bir çox ayəsində onların xarici görünüşü, danışıq və davranış pozğunluğu daxil olmaqla yanaşı xarakter və şəxsiyyət quruluşu da açıqlanır. Onlar haqqında Münafiqun surəsi nazil olmuşdur. Bu surədə münafiqlərin möminlərə düşmən olan ümmət olduqları bildirilir:

**...Onlar düşməndirlər. Buna görə də onlardan ehtiyat et! Allah onların canını alsın! Necə də (haqdan) döndərilirlər.**

**(Münafiqun surəsi, 4)**

Bunlar, Allahın gündən-günə nemətlərini möminlərə artıraraq onların güc və imkanlarını, əzəmət və gözəlliklərini artırmasını həsədlə seyr edən, möminlərin cəmiyyətdəki keyfiyyət və nüfuzuna həsəd aparan alçaq insanlardır. Ona görə də, möminlərə qarşı dərin kin və nifrət hissi bəsləyərlər, eyni zamanda onlardan qorxarlar. Quranda münafiqlərin xarakterinin bəzi detalları belə bildirilir:

**"...Siz bütün kitablara inanırsınız. Sizinlə görüşdükləri zaman: "Biz iman etmişik", - deyərlər. Ancaq xəlvətdə olduqları zaman sizə qarşı qəzəblərindən barmaqlarının uclarını gəmirərlər. De: "Ölün acığınızdan!" Şübhəsiz ki, Allah ürəklərdə olanları biləndir.**
**(Ali İmran surəsi, 119)**

**(Münafiqlər) Özlərinin sizdən olduqlarına dair Allaha and içərlər. Halbuki onlar sizdən deyillər. Lakin onlar qorxaq bir tayfadır.**
**(Tövbə surəsi, 56)**

Quranda hər dövrdə mömin ümmətinə, xüsusən də peyğəmbərlərə qarşı müxalifətin və hücumların olduğu bildirilir. Həqiqi möminləri ilk olaraq küfrün başçıları müəyyənləşdirər. Məsələn, hz. Musanı ilk olaraq Firon, hz. İbrahimi də Nəmrud tanımışdı. Bütün peyğəmbərlərin həyatı küfrlə və onun başçıları ilə mübarizədə keçib. Bu, Allahın bir qanunu olaraq hər əsrdə təkrarlanmışdır.

**(Ey elçi!) Beləcə, Biz hər bir elçi üçün günahkarlardan düşmənlər peyda etdik. Haqq yolu göstərən və yardımçı kimi Rəbbin yetər!**
**(Furqan surəsi, 31)**

Qurana görə mömin ümmətinə qarşı müxaliflərin olması, onlara böhtan və yalanla hücum etməsi, onlara qarşı sui-qəsdlər təşkil etməsi onların səmimiyyətinin və doğru yolda olduqlarının ən güclü dəlilidir.

Bu arada unutmaq olmaq ki, Qurana və Quran əxlaqını yaşayan insanlara qarşı çıxanların bu əməlləri Uca Allahın nəzarəti altında həyata keçirmələridir. Allahın izni olmadan heç kimin belə bir işə cəhd etməyə gücü yoxdur.

Ancaq Allah, möminlərin səbir və təslimiyyətini sınamaq, onları Öz dərgahında daha yüksək dərəcələrə yüksəltmək, daim möminlərə yardım etmək və imanın küfrdən üstün olduğunu göstərmək, möminlərin şan-şərəfini artırmaq, kafirləri xor görüb alçaltmaq, ikiüzlü münafiqlərin həqiqi üzlərini və qəlbində xəstəlik olanların xəstəliklərini ortaya çıxarmaq kimi müxtəlif hikmətlərlə bağlı hər dövrdə möminlərlə kafirlər arasında müxtəlif mübarizə mühiti yaradır. Və vəziyyət nə olursa olsun, Allah "həqiqətən" iman edənlərə dəstək olduğunu və onların həmişə qalib gələcəyini vəd etmişdir.

Allah, Quranın bir çox ayəsində möminlərin Quranda bildirilən mömin əxlaqına xas xüsusiyyətlərə sahib olduqları müddətcə üstün mövqedə olacaqlarını bildirmişdir. Bu ayələrdən bəzilərini misal verə bilərik:

**Ruhdan düşməyin və kədərlənməyin! Əgər inanırsınızsa, üstün olan sizsiniz! (Ali İmran surəsi, 139)**

**...Allah heç vaxt möminlərə qarşı kafirlərə yol verməz.**

**(Nisa surəsi, 141)**

**Kim Allahı, elçisini və iman edənləri dost tutarsa, bilsin ki, həqiqətən, qalib gələcək olan məhz Allahın tərəfdarlarıdır. (Maidə surəsi, 56)**

**Ancaq onu (Quranı) inkar etdilər. Onlar yaxın bir vaxtda biləcəklər. Həqiqətən, elçi olan bəndələrimizdə söz vermişik ki, Onlara mütləq yardım olunacaqdır. Şübhəsiz ki, Bizim əsgərlərimiz qalib gələcəklər. (Saffat surəsi, 171-173)**

**Allah (lövhi-məhfuzda): "Mən və elçilərim mütləq qalib gələcəyik!" - deyə yazmışdır. Allah güclüdür, qüdrətlidir. (Mücadilə surəsi, 21)**

# "Hamı səhvdir, bir tək inananlar doğrudur?" səhv düşüncəsinə cavab

Belə bir sualı verən adam yəqin ki, dünyada bir-birindən fərqli ideologiyaları, çox fərqli dünya görüşləri və həyat tərzləri olduğunu və möminlərin getdiyi yolun da bu minlərlə fərqli yoldan biri olduğunu düşünürlər. Bu halda, niyə bütün digər ideologiya və sistemləri bir kənara qoyub möminlərin yolu ilə getməli olduğunu anlamır. Halbuki bu perspektiv böyük bir səhvə əsaslanır.

İlk növbədə bunu demək lazımdır. Möminlərin getdiyi yoldan başqa bütün sistemlər, ideologiyalar, ictimai nizamlar, fəlsəfələr və ya həyat tərzləri insanlar və ya insan cəmiyyətləri tərəfindən yaradılmışdır. Bu ideologiya və sistemlərə bağlı olanlar, onları çıxaran insanların və ya cəmiyyətlərin həqiqəti tapmaq qabiliyyətinə malik olduğunu qəbul edirlər.

Məsələn, bir marksist, Karl Marksın bütün dünyanın sirlərini açmış, yaxud ən azından onların həllinə yol açmış bir "dahi" olduğunu və Marksın ardınca getməklə həqiqəti tapa biləcəyini düşünür. Cəmiyyətin tarix boyu yaratdığı adət-ənənələrə əməl etməyi həqiqəti tapmağın ən yaxşı yolu olduğunu düşünənlər, bu cəmiyyətin, daha doğrusu, onun əcdadlarının "yol göstərici" olmaq üçün ağıl, bilik və düşüncə gücünə malik olduğunu düşünürlər.

Halbuki, bu "yol göstəricilər"in heç biri insanları haqqa yönəltmək qabiliyyətinə malik deyildir. Çünki son nəticədə bu yol göstəriciləri yaradan insan ağlıdır. İnsan ağlı isə çox yetərsiz, natamam, zəif və məhdud bir yol göstəricidir. İnsan kainatda mövcud olan biliklərin milyardda birinə belə çata bilməz. Çox şeyi həll etməyə gücü çatmır.

Məsələn, tarixin əvvəlindən insanları ən çox düşündürən sualı, "ölümdən sonra nə baş verir?" sualını, Allahın Quranda bildirdiyi həqiqətləri oxumadan həll etmək qabiliyyəti yoxdur. İnsanlar bir cəmiyyət təşkil etdiyi zaman yenə insan ağlının gücü artmaz. Kainatdakı sonsuz elm qarşısında nə qədər ağıl toplasanız da, nəticə yenə də "sıfır"dır.

Ona görə də, insan ağlının Allahın diləməsi xaricində mütləq həqiqəti əldə edə biləcəyini düşünmək tamamilə əsassız bir fərziyyə və "zənn"dir. Bu

məsələ Quranda tez-tez vurğulanır və bütün inkarçıların ortaq xüsusiyyət olaraq "zənnə qapıldıqları" belə bildirilir:

**Əgər yer üzündəkilərin çoxuna tabe olsan, onlar səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və yalan danışarlar. (Ənam surəsi, 116)**

Məsələn, həyatın yalnız bu dünyadan ibarət olduğunu, ölümün xüsusi olaraq yaradılmadığını, maddə əlaqələrinin təsadüf nəticəsi olduğunu iddia edən materialistlər də, məhz bunu edirlər, yəni zənnə qapılırlar. Quranda bu cür insanların vəziyyəti bu şəkildə vurğulanır:

**Onlar: "Dünya həyatımızdan başqa heç bir həyat yoxdur. Ölürük və doğuluruq. Bizi yalnız zaman öldürür", - dedilər. Bu barədə onların heç bir məlumatı yoxdur. Onlar ancaq belə zənn edirlər. (Casiyə surəsi, 24)**

Cahiliyyə cəmiyyətinin digər üzvləri də əcdadlarından miras qalan batil fikir və inanclara kor-koranə bağlanır və onları "yol göstərici" kimi qəbul edirlər. Halbuki bütün bunlar daha çox şayiələrdən, toplu şəkildə əldə edilmiş vərdişlərdən, kor-koranə əməl edilən müxtəlif qaydalardan və şüuraltına yerləşdirilmiş təlqinlərdən ibarətdir. Bu sistemdə ağıl və məntiq heç istifadə edilmir. Cahiliyyə cəmiyyətinin əksəriyyətinin izlədiyi həyat tərzi və anlayışı budur. Quranda Allahın əmrlərinə baxmayaraq atalarına kor-koranə tabe olanlara diqqət çəkilərək, onların "kar, lal və kor" olduqları və düşünmə qabiliyyətlərinin olmadığı bildirilir:

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyiləndə onlar: "Xeyr, biz atalarımızın yolunu izləyirik!" - deyərlər. Bəs, əgər ataları bir şey anlamayıb doğru yolda deyildilərsə necə?! İnkar edənlərin halı çığırtı və bağırtıdan başqa heç nə eşitməyənləri qışqıraraq səsləyən kimsənin halına bənzəyir. Onlar kar, lal və kordurlar. Buna görə də onlar dərk etməzlər.**

**(Bəqərə surəsi, 170-171)**

Əcdadlara tabe olmaq, ideoloqlara bağlanmaq kimi, "zənnə uymaq"dır və insanı doğru yola aparmır. Quranda bir kitab olmadan əcdadlarına inadla bağlananların azğın yolda olduqları bildirilir:

**Yoxsa bundan əvvəl onlara bir kitab vermişik və onlar ona istinad edirlər?! Xeyr! Onlar: "Biz atalarımızın bir din üzərində olduqlarını gördük. Biz də onların izindən gedirik", - deyirlər. Səndən əvvəl də hansı məmləkətə xəbərdarlıq edən bir elçi göndərmişiksə, oranın zəngin sakinləri yalnız: "Biz atalarımızın bir din üzərində olduqlarını gördük. Biz də onların izindən gedirik", - dedilər. (Hər bir elçi öz qövmünə:) "Əgər sizə atalarınızdan gördüyünüz dindən daha doğrusunu gətirmişəmsə, onda necə?!" - demişdi. Onlar isə: "Biz sizinlə göndərilənləri inkar edirik", - demişdilər. (Zuxruf surəsi, 21-24)**

Buna görə də ağıllı insan; nə bir ideoloqun, nə əcdadlarının, nə də "yer üzündə olanların əksəriyyətinin" ağlına etibar etməz. Güvənə biləcəyi yeganə yol göstərici, bütün kainatın elminə və daha çoxuna sahib, sonsuz ağıl və sonsuz qüdrət sahibi olan Allahdır. Quranda Allahın ən çox bəhs edilən sifətlərindən biri də "Rəbb"dir. Rəbb "yol göstərən, tərbiyə edən, hökm edən" deməkdir.

Allahdan başqa varlıqları hidayət rəhbəri kimi tanımaq, onları Rəbb olaraq qəbul etmək və ilahiləşdirmək deməkdir. Aciz varlıqları Allaha "şərik qoşmaq" olaraq tanıdacaq bu rəftar tam bir axmaqlıqdır. Quranda bu vəziyyətdə olan insanlar belə təsvir edilir:

**Ey insanlar! Bir məsəl çəkildi. Elə isə onu dinləyin! Həqiqətən, Allahı qoyub dua etdiyiniz şeylər bir yerə yığışsalar da, bir milçək belə yarada bilməzlər. Əgər milçək onlardan bir şey alıb aparsa, onu geri ala bilməzlər. İstəyən də, istənilən də (müşriklər də, bütlər də) aciz qaldı. (Həcc surəsi, 73)**

Ayədə bildirildiyi kimi, yol göstərməsini istənilən də, yol göstərici olaraq qəbul edənlər də aciz, gücsüz insandır. Başqa bir ayədə də eyni vəziyyət belə açıqlanır:

**Onlar özlərinə yardım ediləcəyini umaraq Allahdan başqa ilahlar qəbul etdilər. (Bu bütlərin) onlara yardım etməyə gücləri çatmaz. Halbuki onlar özləri bütlər üçün hazır durmuş əsgərlərdir. (Yasin surəsi, 74-75)**

Şübhəsiz ki, belə bir məntiq, yəni "zənn"ə əsaslanan sistem tamamilə səhv, batil və boş sistemdir. Yalnız Allaha itaət edilməyə və Rəbb olaraq tanınmağa layiqdir. Rəbbimiz Yunis surəsində belə buyurur:

**De: "Qoşduğunuz şəriklərin arasında haqq yola yönəldən biri varmı?" De: "Allah haqq yola yönəldir. Elə isə doğru yola yönəldənmi tabe olunmağa daha çox layiqdir, yoxsa doğru yol göstərilməyincə doğru yolu tapa bilməyənmi? Sizə nə olub? Siz necə hökm verirsiniz?" (Yunis surəsi, 35)**

Bütün bu izahlardan sonra mövzunun başlığı olan "hamı haqsızdır, yalnız inananlarmı haqlıdır?" sualına belə cavab verə bilərik: Allaha inanmayan, Allahın varlığını bilsə də Onun sonsuz qüdrətini təqdir edə bilməyən, Ona təslim olmayan hər kəs, şübhəsiz ki, səhv yoldadır; Allahdan qorxan və yalnız Onun rizasını istəyənlərin yolu doğrudur.

Çünki yalnız möminlər Allahdan gələn "hidayət"ə, yəni Qurana və Allahın elçisinə tabe olurlar. Buna görə də, Quran və Peyğəmbərimizin səhih hədisləri yer üzündə yeganə yol göstəricidir. Bu həqiqət ayələrdə belə bildirilir:

**Şübhəsiz ki, bu Quran ən doğru yola yönəldir və yaxşı işlər görən möminləri böyük bir mükafat ilə müjdələyir. (İsra surəsi, 9)**

**"...Ramazan ayı insanlara doğru yolu göstərən və içində haqqı batildən ayırmanın açıq dəlilləri olan Quranın nazil edildiyi aydır... (Bəqərə surəsi, 185)**

Şübhəsiz ki, bütün bunları deməklə, möminlərin heç vaxt səhv etmədikləri nəzərdə tutulmur. Əksinə, hər bir insan mütləq səhv edər. Halbuki möminlərin bağlı olduğu "yol göstərici"də, yəni Quranda heç bir səhv, xəta, əksiklik və təhrif qətiyyən yoxdur. Möminlərin yeganə səhvi, Qurana tabe olmaqda göstərdikləri əksikliklərdir. Ancaq səhvlərində inad etməzlər və səhvləri görən kimi düzəldərlər.

# “Möminlər həmişə bir yerdə olmaq məcburiyyətindədirlər? İnsan din əxlaqını təkbaşına yaşaya bilməz?” səhv düşüncəsinə cavab

Uca Rəbbimiz Allaha ürəkdən iman edən hər bir insan Quran əxlaqını tam şəkildə yaşaya bilmək üçün son dərəcə diqqətli hərəkət etməlidir. Həyatının hər anını Qurana uyğun yönləndirməlidir.

Quranda möminlərin bir yerdə olmaları, bir-birlərinə dəstək və kömək etmələri, bir-birlərinə qayğı göstərmələri tez-tez xatırladılır. Ayələrdə belə buyurulur:

**Hamılıqla Allahın ipinə (İslama) yapışın və parçalanmayın! Allahın, sizə olan nemətini xatırlayın. Belə ki, siz bir-birinizə düşmən ikən, O sizin qəlbinizi birləşdirdi və Onun neməti sayəsində qardaş oldunuz. Siz bir atəş quyusunun kənarında ikən O sizi oradan xilas etdi. Allah ayələrini sizə belə açıqlayır ki, bəlkə, haqq yola yönələrsiniz. (Ali İmran surəsi, 103)**

**Şübhəsiz ki, Allah Öz yolunda möhkəm bir divar kimi cərgə-cərgə düzülüb cəhd edənləri sevər. (Saff surəsi, 4)**

**Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona dua edənlərlə birlikdə (çətinliklərə qarşı) səbir et! Dünya həyatının zinətini istəyərək gözlərini onlardan çevirmə! ... (Kəhf surəsi, 28)**

Göründüyü kimi ayədə “gözünü onlardan çevirmə” ifadəsi ilə məlum olur ki, ayrı yaşamaqdan bəhs edilmir və möminlərin birlikdə olduqları zaman belə bir-birlərinə qayğı bəsləmələri vurğulanır. Başqa bir ayədə Peyğəmbərimizin möminlərə qarşı qayğıkeş olmasından bəhs edilir və bu, əsl müsəlmanın nümunə götürməsi vacib olan ruh halıdır. Mövzu ilə bağlı “Tövbə” surəsində belə buyurulur:

**Həqiqətən, sizə öz içinizdən elə bir elçi gəlmişdir ki, sizin çətinliyə düşməyiniz ona ağır gələr. O, sizə qarşı qayğıkeşdir, möminlərə qarşı çox şəfqətli və mərhəmətlidir.**

**(Tövbə surəsi, 128)**

Bu ayələrdən də anlaşıldığı kimi, tək başına din əxlaqını yaşamaq modeli yoxdur. Odur ki, "mən dini təkbaşına da yaşayaram" deyən hər kəs yanılır.

Yuxarıda qeyd edildiyi kimi, möminlər bir-birlərinə yaxşılığı əmr edib, pis əməllərdən çəkindirməyə, insanları haqqa dəvət etməyə borcludurlar. Aydındır ki, insan bunu təkbaşına edə bilməz.

Üstəlik, islamın təməli sevgi üzərinədir. Allah möminlərin qəlbində digər möminlərə qarşı sevgi bağı yaratmışdır. Mömin əvvəlcə Allahı, sonra Quran əxlaqını yaşayan insanları sevər. Allahın rizası əsasında belə bir sevgi bağı quran, eyni gözəl əxlaqı yaşayan, sonsuza qədər birlikdə olmaq niyyətində olan insanların ayrı qalaraq fərqli işlərlə məşğul olmaları ağlasığmazdır. Belə bir düşüncə insanda həqiqi sevgi və iman əksikliyini göstərir. Halbuki, **"Möminlər ancaq qardaşdırlar..."** (Hucurat surəsi, 10) ayəsində bildirildiyi kimi, qardaşlar arasında ayrılıq olmaz.

Peyğəmbərimiz (s.ə.v) möminlərin bir yerdə olmalarını, bir-birləri ilə möhkəm dostluq və sevgi ilə bağlı olmalarını belə bildirmişdir:

**Əbu Musa belə nəql etdi: "Möminlə mömin divar kimidirlər, bir-birlərini bərk-bərk tutarlar" və bunu deyərkən barmaqlarını bir-birinə keçirib möhkəm sıxdı. (Səhih Buxari, 2-ci cild, səh. 569)**

Ən-Numan ibn Bəşir belə deyir:

**"Allahın Peyğəmbəri belə buyurdu: "Bütün möminlər bir-birlərini mərhəmətə, sevgiyə, lütf etməyə və köməkləşməyə sanki bədən üzvləri kimi bir-birlərini xəstə orqanın ağrılarına şərik olmağa dəvət edərlər." (Səhih Buxari, 13-cü cild, səh. 6005)**

# "İslamda müəyyən sinif fərqi varmı? İnsanlar var-dövlətinə, statusuna və gözəlliyinə görə qiymətləndirilər? İslam, müəyyən bir qrup insanlara izah olunur?" sualına cavab

İslamda insanları irqinə, soyuna, ailəsinə, ictimai mövqeyinə, zənginliyinə, cinsinə, gözəlliyinə və fiziki xüsusiyyətlərinə görə qiymətləndirmə anlayışı qətiyyən yoxdur. Allah qatında bütün insanlar doğuşdan bərabərdirlər. Ancaq müəyyən şüur qazandıqdan sonra davranış və düşüncələrinə görə məsuliyyət daşıyırlar və buna görə qiymətləndirilirlər. Üstünlük anlayışı yalnız insanın Allah qorxusu və təqvası ilə düz mütənasibdir. Allah bunu bizlərə Quranda belə bildirir:

**Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Bir-birinizlə tanış olasınız deyə sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz, Allah yanında sizin ən dəyərliniz ən təqvalı olanınızdır. Şübhəsiz ki, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır.**

**(Hucurat surəsi, 13)**

Buna görə də mömin, insanları heç vaxt "təqva"dan başqa heç bir meyarla qiymətləndirməz. Halbuki insanları təqvalarına görə qiymətləndirmək və islam əxlaqının yayılması üçün ən faydalı və uyğun üsullara riayət etmək iki fərqli şeylərdir. Çünki mömininin, islamı təbliğ etməyə çalışarkən qarşılaşdığı cəmiyyət mömin cəmiyyəti deyil. Ona görə də bu cahil cəmiyyətdə üstünlük meyarı "təqva" deyil. Əksinə, cahil cəmiyyət üstünlük anlayışını maddi zənginlik, irq və ya soy fərqliliyi kimi səhv meyarlara əsaslandırmışdır.

Cahiliyyə cəmiyyətlərində insanları yönləndirən, örnək götürülən, iqtidarda olan insanlar, Quranda "qövmün azğın liderləri" adlandırılan insanlar bu xüsusiyyətlərə ən çox sahib olan, yəni ən zəngin, ən məşhur insanlardır. Cəmiyyətin digər təbəqələri çox vaxt bu "liderləri" kor-koranə arxasınca gedir. Onların nəzərində liderlərin doğru dedikləri doğru, səhv dedikləri isə səhvdır.

Cahiliyyə cəmiyyətlərindəki bu cür idarə edən və idarə olunan kəslərin münasibəti Quranda çox qısa şəkildə təsvir edilmişdir. Firon və qövmü bunun ən bariz nümunəsidir: Firon böyük maddi və hərbi qüdrəti sayəsində qövmünün başçısı olmuşdu. O, demək olar ki, bütün xalqına öz azğın dünyagörüşünü tətbiq etmişdi. Quranda bildirildiyi kimi Firon öz qövmünə belə xitab edir:

**Firon: "Mən sizə yalnız öz fikrimi bildirir və doğru yolu göstərirəm!" - dedi." (Mömin surəsi, 29)**

Firon özünü qövmünün yeganə "rəhbəri" kimi təqdim edərkən, cahil cəmiyyət olan qövmü də ona itaət etmişdir. Bu hadisə Quranda belə təsvir olunur:

**Beləcə, Firon öz qövmünü xor görüb aldatdı, onlar da ona itaət etdilər. Həqiqətən, onlar fasiq idilər. (Zuxruf surəsi, 54)**

Firon qövmünün "boyun əyməsi" əslində demək olar ki, bütün cahil cəmiyyətlərin ortaq xüsusiyyətidir. Bu cəmiyyətin əksəriyyətini təşkil edən "boyun əyənlər" daim "rəhbərlər" tərəfindən istiqamətləndirilir. Bununla belə, **"...Lakin onlar Fironun əmrinə tabe oldular. Halbuki Fironun əmri doğru deyildi."** (Hud surəsi, 97) ayəsində bildirildiyi kimi, bu itaət insanları əsla haqqa yönəltməz. Bu batil sistemə görə qövmün liderlərinə tabe olan insanların əksəriyyətinin özbaşına həqiqəti görmək və qəbul etmək qabiliyyətinə malik deyildilər. Liderləri onlara dindən uzaq bir həyat tərzini cəlbedici kimi təqdim etdiyi müddətcə, yaşadıqları cahiliyyə sistemin səhvlərini görməzlər, daha doğrusu, görməzlikdən gələrlər.

Məhz bu səbəbdən də, cahil cəmiyyəti imana dəvət ediləcəksə, qövmün liderlərinə yaxşılığın əmr edilməsi və onların pis əməllərdən çəkindirilməsi ilk növbədə əsas məsələdir. Çünki bunlar həqiqəti görüb Quran əxlaqını mənimsəsə, onlardan nümunə götürən çoxlu insanların da dinə yönəlməsinə səbəb olar. Əslində, Allah tarix boyu bütün elçilərinə cəmiyyətin bu təbəqəsini xəbərdar etməyi əmr etmişdir. Məsələn, hz. Musa Firona və "onun rəhbər dairəsinə" göndərilmişdi:

**Həqiqətən, Biz Musanı möcüzələrimizlə Firona və onun əyanlarına göndərmişdik və o: "Mən aləmlərin Rəbbinin elçisiyəm!" - demişdi. (Zuxruf surəsi, 46)**

Quranda bütün peyğəmbərlərin eyni yolu izlədiyi bildirilir. Hz. Nuh (Muminun surəsi, 23), hz. Hud (Əraf surəsi, 66), hz. Şueyb (Əraf surəsi, 78) həmişə xalqın liderləri ilə münasibətdə olmuşlar. Necə ki, Peyğəmbərimizin mübarizəsinin böyük hissəsi Məkkəlilərin liderləri ilə olmuşdur.

Təbii ki, bura qədər izah etdiklərimiz o demək deyil ki, islamın təbliği və izahı müəyyən qruplarla məhdudlaşmalıdır. Liderlərə təbliğ edilməsinin səbəblərindən biri də, bayaq qeyd etdiyimiz kimi, cəmiyyətin əksər hissəsinin liderlərin təlqinlərindən müstəqil düşünə bilməməsidir. Ancaq cəmiyyətin bu təbəqələrində hələ də müstəqil düşüncəli, vicdanlı, iman edəcək insanlar var. Möminlər, şübhəsiz ki, bu insanlara dini izah etməli və onları "qardaş" kimi qəbul etməlidirlər. Qurana görə din, onu öyrənmək istəyən hər kəsə izah edilməlidir.

Digər əsas məqam isə insanın imanla şərəflənməsi və Qurana tabe olması onun fiziki və mənəvi keyfiyyətinin artmasına səbəb olmasıdır. Gözəllik və ya çirkinlik yalnız müəyyən cizgilərdən yaxud ölçülərdən asılı olan anlayış deyil. İman edən şəxsin əvvəlki halından daha da gözəlləşər və ya pislik etməyə davam edən insanın üzünü getdikcə daha da zillət bürüyər. Burada metafizik vəziyyət var. İnsanın imanla qazandığı mənəvi gözəllik onun fiziki gözəlliyinə də təsir edər. Allah Quranda simalara diqqət çəkir.

Məsələn, Allah münafiqlər haqqında **"...onları üzlərindən tanıyacaqsan..."** (Məhəmməd surəsi, 30) deyərkən, möminlərin isə üzündəki **"səcdə izindən"** tanınacaqlarını bildirmişdir (Fəth surəsi, 29). Həqiqətən də, möminlərin üzündə Allahın **"səcdə izi"** olaraq adlandırdığı, təvazökar, təmiz, etibarlı və ləyaqətli bir ifadə vardır.

Quranda ixlas və Allaha bağlılığına görə təriflənən hz. Yusifin çox gözəl olmasından bəhs edilir:

**"...Onlar Yusifi gördükləri zaman onu ucaltdılar (onun nə qədər yaraşıqlı olduğunu etiraf etdilər). (Çaşqınlıqla) öz əllərini**

**kəsdilər və: "Allahı tənzih edirik! Bu insan deyil. Bu ancaq uca bir mələkdir!" - dedilər. (Yusif surəsi, 31)**

Bu ayələrin bizə göstərdiyi nümunə isə, Allahın möminlərə verdiyi nur, onların fiziki görünüşlərinə də təsir edir. Möminlər, hz. Yusif misalında olduğu kimi, bunun Allahdan bir nemət olduğunu bilməlidirlər.

# “Müsəlmanların zəngin, güclü və şöhrətli olması islamın ümumi məntiqinə ziddirmi?” sualına cavab

Bəzi kütlələrdə yoxsulluğu, inkişaf etməməyi, məzlumluğu və ya ümumi sözlə, dünyadan uzaqlaşmağı islamın simvolu kimi görmək vərdiş halına gəlib. Lakin bu, düzgün düşüncə tərzi deyil.

Qurani-Kərimə və Peyğəmbərimizin həyatına nəzər saldıqda islamın belə bir modelin olmadığını asanlıqla anlamaq olur. Ayələrdə bildirilir ki, bir çox peyğəmbərlərə böyük sərvət və mal verilmişdir. Onların arasında hz. Süleymanın misilsiz sərvəti və əzəməti, ehtişamı əsrlərdir dillərə dastan olmuşdur. Allahın bir çox ayəsində haqqında tərifləyərək bəhs etdiyi və örnək göstərdiyi hz. Süleyman, Allahın rizasından başqa bir məqsədi və Allahın dinindən başqa bir yol göstəricisi yox idi. Hz. Süleyman, Allahın ona verdiyi böyük mülkə sahib olmamışdan əvvəl belə dua etmişdi:

**Süleyman dedi: "Ey Rəbbim, məni bağışla və mənə bundan sonra heç kimin əldə edə bilməyəcəyi bir hökmranlıq bəxş et! Şübhəsiz ki, Sən lütf sahibisən." (Sad surəsi, 35)**

Zəngin olmaq istəmək müsəlmanlar üçün pis bir əməl olsaydı, Allahın bir çox ayədə tərifədiyi bir peyğəmbər bunun üçün dua etməzdi. Beləliklə, Quranda bildirildiyi kimi Allah, hz. Süleymanın bu duasını qəbul etmişdi. Və Quranda hz. Süleymandan tərifləyərək bəhs edilir:

**Biz Davuda Süleymanı bəxş etdik. O nə gözəl bəndədir! Həqiqətən, o, daim Allaha yönəlirdi. (Sad surəsi, 30)**

Hz. Süleyman bu mövzuda tək nümunə deyil. Allah hz. Süleymanın atası hz. Davuda da hökmdarlıq vermiş, ona güc və iqtidar verərək peyğəmbər seçmişdi. Allah, eynilə hz. İbrahimə və ailəsinə də böyük bir mülk verdiyini də bildirmişdir:

**Yoxsa onlar Allahın Öz lütfündən bəxş etdiyi şeylərə görə insanlara həsədmi aparırlar? Halbuki, Biz İbrahim ailəsinə kitab və hikmət vermiş, onlara böyük bir hökmranlıq bəxş etmişdik. (Nisa surəsi, 54)**

Diqqət etsəniz, yuxarıdakı ayədə Allahın müsəlmanlara nemət olaraq verdiyi sərvətə paxıllıq etmək tənqid edilir.

Allahın, peyğəmbərimiz hz. Məhəmmədi də zəngin etdiyi Quranda bu şəkildə bildirilir:

**Səni yoxsul ikən zəngin etmədimi?! (Duha surəsi, 8)**

Məhz burada möminlərin sərvət anlayışı ilə cahil cəmiyyətin zənginlik anlayışı arasındakı fərq ortaya çıxır. Möminlər mülkün Allahdan gəldiyini və mülkün əsl sahibinin Allah olduğunu bilirlər. Ancaq cahil düşüncəyə sahib insanlar zənginlik anlayışı, bütün mülkün sahibinin Allah olduğunu tamamilə görməməzlikdən gəlməkdən qaynaqlanan mülk sahibi olmaq instinktinə əsaslanır. İki tərəf arasındakı bu böyük fərq mülkün istifadəsində də özünü göstərir. Möminlər mallarını Allahın rizasına uyğun olaraq xeyirli işlərə sərf edərlər. Ancaq cahil cəmiyyətin üzvü olan mülk sahiblərinin əsas xüsusiyyəti **“yer üzündə fitnə-fəsad törətmələri”**dir (Qəsəs surəsi, 77).

Mal-mülk, ehtişam və hakimiyyət, Allahın istədiyi mömin bəndələrinə verdiyi hədiyyədir. Önəmli olan, Allahın halal yollarla verdiyi mal və sərvətə şükür etmək, onlardan məqsədəuyğun şəkildə istifadə etmək, Allahın nemətlərini həmişə xatırlamaq və bununla da Allaha yaxınlaşmaq, Onun rizasını qazanmaq üçün yollar axtarmaqdır.

Hz. Süleymanın Quranda mal-mülk sevgisindəki məqsədi bu şəkildə açıqlanır:

**Bu zaman o: “Həqiqətən, mən mal-mülk (at) sevgisini Rəbbimi zikr etmək üçün istədim...” (Sad surəsi, 32)**

Ancaq bu dünyanın imtahan yeri olduğunu unutmamalıyıq. Müxtəlif bəla və çətinliklər qarşısında göstərilən səbir və qətiyyətin dərəcəsi insanın imanındakı dərinliyi müəyyən edir. Bu səbəbdən Allah bu üstün xüsusiyyətlərini ortaya çıxarmaq və onları Öz qatında mükafatlandırmaq üçün iman edənləri fərqli hadisə və mühitlərlə qarşılaşdırar. Allah möminlərin səbrini və Ona olan etibarını ölüm, qorxu, aclıq kimi müxtəlif çətinliklərlə yanaşı yoxsulluqla da imtahan edər.

Amma doğru olan odur ki, müsəlman bir tərəfdən səbir edərkən digər tərəfdən də Allahdan nemətlərini artırması, genişləndirməsi və rahatlıq verməsi üçün həmişə dua edər. Üstəlik, bunu təkcə özü üçün deyil, bütün möminlər üçün istəməli, Allahın adını zikr etmək üçün geniş imkanlar tələb etməlidir. Bu, Quranın ruhuna ən uyğun olan davranışdır.

Bundan əlavə, unutmamaq lazımdır ki, İslamda insanlar var-dövlət meyarına görə qiymətləndirilmir. İnsanın kasıb və ya zəngin olması onun Allah qatındakı məqamına təsir etməz. Sahib olduğu mal-dövləti istər çox, istər az olsun, əsas olan Allahın rızasına uyğun xərcləməsidir. Möminin zəngin olmaq istəyinin arxasında, əldə etdiyi sərvəti Allahın rızasına uyğun istifadə edə bilmək istəyi dayanır. Möminlər üçün bunun əksini etmək, yəni "sərvət yığmaqdan" söhbət gedə bilməz. Çünki, **"Qızıl və gümüş yığıb onu Allah yolunda xərcləməyən kimsələri acı bir əzabla müjdələ! (Tövbə surəsi, 34).**

Möminlər dünya həyatında Allahın nemətlərindən bəhrələnib zövq aldıqları kimi, onlara verilənləri Allah yolunda xərcləməkdən də böyük zövq alarlar. Bu baxımdan, mal-mülk, sərvət və onlara sahib olmaq üçün dua etmək səmimi möminlər üçün ibadət və mükafat mənbəyidir. Allah, şükür edilən və Allah yolunda xərclənən malı artıracağını vəd edir.

Eyni zamanda Qurana tabe olan həqiqi mömin yer üzündə Allahın bəndəsidir. Buna görə də, Allah yer üzünün həqiqi sahiblərinin möminlər olacağını bildirərkən, Quranda bu nemətə qovuşacaq insanların xüsusiyyətlərini belə bildirir:

**Allah sizlərdən iman edib yaxşı işlər görənlərə, özlərindən əvvəlkiləri hakim etdiyi kimi onları da mütləq yer üzünə hakim edəcəyini, onlar üçün bəyəndiyi dini (İslamı) mütləq yerləşdirib möhkəmləndirəcəyini və (keçirdikləri) qorxudan sonra onlara əmin-amanlıq verəcəyini vəd etmişdir. (Çünki) onlar Mənə**

**ibadət edirlər və heç nəyi Mənə ortaq qoşmurlar. Artıq bundan sonra kim inkar edərsə, onlar əsil fasiqlərdir. (Nur surəsi, 55)**

# “Din əxlaqının tələblərini yerinə yetirməyə başlayan insan köhnə zövqlərini mütləq tərk etməlidir?” deyənlərə cavab

Allah iman edən bəndələrinin ən gözəl həyatı yaşamasını istəyir. Quranda möminin gözəl həyat tərzi keçirəcəyi bildirilir:

**Kişi və ya qadınlardan mömin olaraq kim yaxşı işlər görərsə, ona mütləq gözəl bir həyat yaşadacağıq və əlbəttə, onları etdikləri əməllərin ən gözəli ilə mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

Quranda halal və təmiz olan gözəl ruzidən istifadəyə təşviq edilir:

**Ey iman edənlər! Allahın sizə halal etdiyi yaxşı və təmiz nemətləri (özünüzə) haram etməyin və həddi aşmayın! Şübhəsiz, Allah həddi aşanları sevməz. (Maidə surəsi, 87)**

İnsan, Allahın sərhədlərini qoruduğu müddətcə ləyaqətli, şən, incəsənət və estetikadan həzz alan, güclü sosial əlaqələrə malik olmağı, gözəl xasiyyətli olmağı qadağan edən heç bir hökm yoxdur. Allahın haram etdiyi şeylər Quranda bildirilmişdir. Peyğəmbərimizin nümunəvi həyatı və tövsiyələri də məlumdur. Bundan başqa, insanın öz fikrinə görə hökm verməsi Quranda pislənir:

**Dilinizin uydurduğu yalana əsaslanaraq: “Bu halaldır, bu isə haramdır", - deməyin! Yoxsa Allaha qarşı yalan uydurmuş olarsınız. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar! (Nəhl surəsi, 116)**

**...Yeyin, için, lakin israf etməyin! Şübhəsiz, Allah israf edənləri sevməz. De: "Allahın bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram etdi?" De: "Bunlar dünya həyatında, xüsusilə də qiyamət günündə möminlərə məxsusdur". Biz anlayan bir qövm üçün ayələri belə bəyan edirik. (Əraf surəsi, 31-32)**

Allaha tam iman etməyən insanlar da, möminlər kimi dünya nemətlərindən bəhrələnirlər. Kafirlə mömin arasındakı fərq burada ortaya çıxır. İnkar edənlər Allahın onlara imtahan etmək üçün verdiyi pul, mal-mülk kimi nemətlərə bağlanır, Allahı unudur və Onun nemətlərinə nankorluq edirlər. Halbuki möminlər bu nemətlərin Allahdan gəldiyini bilərək bu nemətləri Allah yolunda ən gözəl şəkildə istifadə edərək Allaha yaxınlaşırlar. Bu mövzu ilə bağlı Quranda belə bildirilir:

**Allahın sənə verdikləri ilə (Allah yolunda infaq edərək) axirət yurdunu istə! Dünyadakı nəsibini də unutma! Allahın sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et və yer üzündə fitnə-fəsad törətməyi düşünmə! Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevməz. (Qəsas surəsi, 77)**

Qısaca, Quran əxlaqına və Peyğəmbərimizin sünnəsinə uyan mömin çox təmiz, alicənab, gülərüz, xoş söhbət, incəsənət və estetikadan zövq alan, keyfiyyətli, tərbiyəli, etidallı və uzaq görən xarakterə sahibdir. Peyğəmbərimizin və səhabələrinin həyatına nəzər saldıqda bu vəziyyət açıq şəkildə görünür. Bunun əksini, yəni ləyaqətli və təmiz olmamağı, içinə qapalı olmağı, sərt və qatı olmağı dinin əsası kimi göstərmək heç də uyğun davranış deyil.

Ancaq bütün bunlarla yanaşı, vurğulanmalı başqa bir məqam da var: İnsan, Quran əxlaqını mənimsədikcə və Quranda bildirilən möminə xas xüsusiyyətlərə yiyələndikcə daha fərqli zövqlərin varlığını dərk edər. Məsələn, cahil cəmiyyətdə olan insan üçün həyatın ən böyük ləzzəti səyahət edib əylənməkdir. Halbuki, möminin həyatında daha üstün, daha nəcib və daha qalıcı ləzzətlər vardır. Allah rizası üçün çalışmaq, Allahın dinini təbliğ etmək, Quran əxlaqının gözəlliklərini insanlara izah etmək, insanları pisliyə sürükləyən inkarçılara qarşı fikri mübarizə aparmaq kimi...

İnsan, Quranda bildirilən möminin əxlaqını daha çox yaşadıqca, imanla əldə edilən həqiqi ləzzətlərin cahiliyyə ləzzətlərindən qat-qat üstün olduğunu görər.

# "İnsan islamı qəbul edib yaşamağa başlayanda əvvəlki dostlarının yanında ola bilməzmi?" deyənlərə cavab

İnsan eyni anda iki əks düşüncəni mənimsəyə bilməz. İman və küfr tamamilə bir-birinə zidd iki anlayış olduğuna görə bir insanın həm möminlərlə, həm də inkarçılarla eyni fikir, düşüncə və hissləri paylaşması mümkün deyil.

İnsanlar arasında dostluq və yoldaşlıq kimi münasibətlərin təməl ünsürü sevgidir. Mömininin ən mühüm xüsusiyyəti, qəlbindəki Allah sevgisidir. Möminlərin Allaha olan güclü sevgisi Quranda belə bir müqayisə ilə bildirilir:

**İnsanlardan elələri var ki, Allahdan qeyrilərini Ona şərik qoşur və onları Allahı sevdikləri kimi sevirlər. İman edənlərin Allaha olan sevgisi isə daha qüvvətlidir. Kaş zalımlar əzabı görəcəkləri zaman anlayacaqları kimi, bütün gücün Allaha məxsus olduğunu və Allahın əzabının şiddətli olduğunu dərk edəydilər.**

**(Bəqərə surəsi, 165)**

Allah sevgisi, şübhəsiz ki, yer üzündə Ona ibadət edən və Onun rizasını axtaran möminlərə yönəldiləcək. Elə buna görə də, Allaha və Qurana iman edən, islamın mahiyyətini dərk edən bir insanın möminlərdən başqasına sevgi duyması ağlasığmazdır. Təbii ki, qarşıdakı insan qəlbən inandığı, canından çox sevdiyi, uğrunda malını və canını fəda etdiyi, ona doğru yolu göstərən, nemət verən, cənnətlə və sonsuz mükafatla müjdələyən Rəbbimizi tanımırsa yaxud layiqincə təqdir etmirsə, bu sevgi formalaşa bilməz. Möminlə bu cür insan arasında heç bir sevgi bağı yarana bilmədiyinə görə həqiqi dostluqdan da söhbət gedə bilməz. Quranda belə buyurulur:

**Allaha və axirət gününə inananların - valideynləri, övladları, bacı-qardaşları, yaxud yaxın qohumları olsa belə - Allaha və elçisinə düşmən olanlarla dostluq etdiklərini görə bilməzsən...**

**(Mücadilə surəsi, 22)**

Ancaq buna baxmayaraq bəzi insanların, xüsusən də, Quran əxlaqını yeni öyrənmiş insanların köhnə cahil tanış və dostlarına qarşı hələ də müəyyən yaxınlıq və rəğbət bəslədiyi hallar ola bilər. Əslində onlara şəfqət və anlayışla yanaşmağın, yaxşı və gözəl davranmağın heç bir zərəri yoxdur. Amma Quranda bildirilir ki, möminlərin dostları Allahdan və digər möminlərdən başqası ola bilməz.

**Sizin dostunuz ancaq Allah, onun elçisi, rüku edərək namaz qılan və zəkat verən möminlərdir. Kim Allahı, elçisini və iman edənləri dost tutarsa, bilsin ki, həqiqətən, qalib gələcək olan məhz Allahın tərəfdarlarıdır. (Maidə surəsi, 55-56)**

Allah bu ayələrdə təkcə möminləri dost etməyi, eyni zamanda Allah rizası üçün edilən işlərin müvəffəqiyyətinin açarı olduğuna diqqət çəkir. Necə ki, Quranda ixlaslı möminlərin bir araya gəlib bir-birlərinə dəstək olub kömək etmələrinin müvəffəqiyyətin sirri olduğunu bildirən bir çox ayələr vardır. Ancaq bunun əksinə, Allahın Quranda bildirdiyi əmr və tövsiyələrə əməl edilməzsə möminlər üçün çətin və sıxıntılı vəziyyətin yaranacağını, güclərinin azalacağını da bildirilir.

**İnkar edənlər də bir-birlərinin dostlarıdır. Siz onu (Allahın əmrlərini) yerinə yetirməsəniz, yer üzündə böyük bir fitnə-fəsad olar. (Ənfal surəsi, 73)**

**Allah və Onun elçisinə itaət edin və bir-birinizlə çəkişməyin! Yoxsa qorxub zəifləyər və taqətdən düşərsiniz. Səbir edin! Şübhəsiz ki, Allah səbir edənlərlə bərabərdir. (Ənfal surəsi, 46)**

Bütün bu məlumatlara və açıq-aydın ayələrə baxmayaraq, “Mən hər iki tərəfi də idarə edərəm, mənə problem olmaz” kimi qeyri-səmimi fikirlərə sahib olanların, eyni zamanda möminlərə yaxınlaşıb, “bəlkə bir fayda əldə edərəm” kimi hesablar aparanların riyakarlığı mütləq ifşa olunacaq.

**Yoxsa Allah sizin içinizdən cihad edib Özündən, elçisindən və möminlərdən başqasını dost tutmayanları ortaya çıxarmadan sərbəst buraxılacağınızımı zənn etdiniz?! Allah etdiyiniz əməllərdən xəbərdardır. (Tövbə surəsi, 16)**

Onu da qeyd etmək lazımdır ki, Allahın sərhədləri qorunduğu təqdirdə, möminlərin müxtəlif mövzularda (iş, ticarət, təhsil, qohumluq, qonşuluq və s.) başqa insanlarla sosial, iqtisadi və mədəni əlaqələrdə olması tamamilə normaldır. Allah Quranda bu məsələ ilə bağlı meyarı bu şəkildə bildirir:

**Allah sizinlə din uğrunda vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyinizi və onlara qarşı ədalətlə davranmağınızı qadağan etmir. Şübhəsiz ki, Allah ədalətli olanları sevir. (Mumtəhənə surəsi, 8)**

# “Din əxlaqını yaşamaq istəyirəm, amma ailəmin və ətrafımın əks reaksiya verməsindən qorxuram” deyənlərə cavab

İnsan, Quran əxlaqını yaşamağa başlamazdan əvvəl bütün həyatını Allahın kitabındakı meyarlardan başqa müəyyən qaydalara görə yaşayar. Cahil cəmiyyətlərdə bir çox batil adətlər vardır ki, bu cəmiyyətin üzvləri digər insanlarla münasibətlərini bu batil meyarlar əsasında qururlar.

Halbuki insana Allahdan, Onun kitabından başqa doğru yol göstərən yoxdur. Bunu dərk edən insan, yəni mömin, cahiliyyə dövrünü tamamilə geridə qoymalı, orada qazandığı davranış nümunələrini tamamilə tərk etməli, yalnız Quranda bildirilən yolla getməlidir. Və şübhəsiz ki, ailəsi və ətrafı ilə münasibətlərində Quranda bildirilən üsulu tətbiq etməklə məsuldur.

Bəzi cəmiyyətlərdə ailə quruluşu iman üzərində qurulsa da, bəzi ailələrin Quran əxlaqını yaşamaq istəyən ailə üzvlərinə qarşı mənfi reaksiya olduğu müşahidə edilir. Bəzi ailələr övladlarının dini məsələlərə ən kiçik meylinə belə şiddətlə reaksiya verirlər. Ən maraqlısı odur ki, övladlarını din əxlaqından uzaq tutmaq üçün dinin bəzi hökmlərini təhrif etməyə çalışırlar.

Din əxlaqı ilə yaşamağa qərar verən övladlarını cəhalətə qaytarmaq üçün **“valideynlərə tabe olmamaq, onları incitmək dinimizdə ən böyük günahdır”, “valideyn haqqı hər şeydən üstündür”, “haqqımı sənə halal etmərəm”** kimi səhv yanaşmalar sərgiləyirlər. Bu cür səbəblərlə edilən psixoloji təzyiqlər islam dini haqqında hələ kifayət qədər məlumatı olmayan insanda səhv hərəkət etdiyi hissi verə bilər.

Halbuki, hər mövzuda olduğu kimi, bu məsələdə də mömin üçün ən yaxşı hərəkət Qurana müraciət etməkdir. Quran əxlaqında valideynə qarşı göstəriləcək münasibət çox açıqdır. Quranda ilk növbədə ata-ana ilə yaxşı və gözəl davranmaq tövsiyə olunur:

**Biz insana ata-anasına yaxşı davranmasını tövsiyə etdik...**
**(Ənkəbut surəsi, 8)**

Ancaq bu ifadə, valideynlərinizin hər istəyini yerinə yetirmək və ya hər məsələdə onlara baş əymək demək deyil. Ayədə buyurulan, valideynlərə qarşı hörmət etmək, həddi qorumaq, anlayışlı və şirin dilli rəftar etmək; incidici, qəlb qırıcı söz və hərəkətlərdən çəkinməkdir. Ancaq bu, dini məsələlərdə, o cümlədən Allahın əmr və qadağalarında güzəştə getmək kimi bir münasibət deyil. Eyni ayənin davamında bu hörmət və anlayışın sərhədləri belə ifadə edilir:

**...Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etsələr, onlara itaət etmə! Sizin dönüşünüz Mənədir və Mən etdiyiniz əməlləri sizə xəbər verəcəyəm.**

**(Ənkəbut surəsi, 8)**

Göründüyü kimi valideynlərin "**Allahın əmr və qadağalarını deyil, mənim istəklərimi yerinə yetirməlisən**" kimi bir istəyi qəbul etmək, onları Allaha şərik qoşmaq mənasını verər. Şübhəsiz ki, mömin üçün belə bir itaət heç vaxt mümkün deyil.

Ancaq Allah valideynləri imansız olsa belə, möminlərin dini məsələlərdə onlara itaət etməməklə yanaşı dünyəvi işlərdə gözəl, xoş və mehriban davranmağı tövsiyə edir:

**Biz insana ata-anasına yaxşı davranmsını tövsiyə etmişik. Anası onu çətinliklərə dözərək bətnində daşımışdır. Onun süddən kəsilməsi də iki il ərzində olur. Mənə şükür et və ata-anana təşəkkür et! Axır dönüş Mənədir. Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etsələr, onlara itaət etmə! Dünyada onlarla yaxşı dolan! Mənə yönələnlərin yoluna tabe ol! Sonra dönüşünüz Mənədir. Mən də etdiyiniz əməlləri sizə xəbər verəcəyəm. (Loğman surəsi, 14-15)**

Diqqət etsəniz, ata-ana ilə bağlı ayələrdə Allaha şərik qoşmamaq, Allahdan başqasına qulluq etməmək xüsusilə vurğulanır. Və yuxarıdakı ayədən də açıq şəkildə başa düşülür ki, itaət edilməli olan şəxs cəhalətə çağıran valideynlər deyil, "**səmimi qəlbdən Allaha yönələn**" şəxsdir.

Quranda göstərilən hekayələrdə keçmişdə yaşamış möminlərdən bəzilərinin ailələri və ya yaxın qohumları ilə imtahan edildiyini görürük. Onların arasında peyğəmbərlər də var. Məsələn, hz. İbrahim onu cəhalətə çağıran, hətta onu hədələyən atasına qarşı Quranda təsvir edilən **"itaət etməmək, amma yaxşı yola getmək"** üsulunu tətbiq etmişdir:

**Kitabda İbrahimi də an! Həqiqətən, o, çox dürüst bir insan və elçi idi. Bir zaman o, atasına demişdi: "Atacan! Eşitməyən, görməyən və sənə heç bir fayda verə bilməyən şeylərə (bütlərə) nə üçün ibadət edirsən? Atacan! Həqiqətən, mənə, sənə gəlməyən bir elm gəlmişdir. Ona görə də mənə tabe ol ki, səni doğru yola aparım. Atacan, şeytana ibadət etmə! Şübhəsiz, şeytan Rəhmana (Allaha) üsyan etmişdir. Atacan! Rəhmandan sənə bir əzab toxunmasından və beləcə, şeytanın dostu olmağından qorxuram. Atası dedi: "Ey İbrahim! Sən mənim ilahlarımdan üz çevirirsən? Əgər buna son qoymasan, səni mütləq daşqalaq edəcəyəm. Uzun müddət məndən uzaq dur!" İbrahim dedi: Sənə salam olsun (salamat qal)! Rəbbimdən sənin üçün məğfirət diləyəcəyəm. Həqiqətən, O mənə qarşı çox lütfkardır.**

**(Məryəm surəsi, 41-47)**

Bundan əlavə, hz. Lut və hz. Nuhun zövcələri də kafir olmuşlar, bu səbəbdən Allah onları bir-birindən ayırmış və iman etməyən zövcələrini cəzalandırmışdır. Hz. Nuhun oğlu da imansız (kafir) idi və buna görə də, Allah hz. Nuha dedi: **"Allah buyurdu: "Ey Nuh! O sənin ailəndən deyildir. Çünki bu (onun etdiyi əməl), pis bir işdir..."** (Hud surəsi, 46) deyə xəbərdarlıq etdi.

Peyğəmbərimiz islamı yaymaq vəzifəsini yerinə yetirərkən yaxın qohumları tərəfindən düşmənçiliklə qarşılanmışdır. Öz əmisi Əbu Ləhəb böyük kin və nifrətlə Peyğəmbərimizə qarşı təbliğat aparmış, ona hər cür maneə və çətinlik yaratmışdı. İş o yerə çatdı ki, Əbu Ləhəbi lənətləyən xüsusi bir surə nazil oldu. İslamın ilk yayılma dövründə bir çox müsəlman, Peyğəmbərimiz kimi ailələri tərəfindən müxtəlif reaksiyalara və zülmlərə məruz qalmış, lakin buna baxmayaraq dinlərindən heç vaxt uzaqlaşmayıblar. Onların qətiyyəti və səmimiyyətindən təsirlənən bir çox valideynlər də sonradan islamı qəbul etmişlər.

Möminlərin bu qədər qərarlı olmasının səbəbi, Quranda ağlın təşviq edilməsidir. Quranda hər hansı bir məsələyə emosional yanaşma tövsiyə edilmir. Müsəlman son dərəcə mehriban, sevgi dolu və mülayim bir insandır, lakin söhbət Allahın dininin tələblərinə və islamın mənafeyinə gəlincə, Quran ayələrini tətbiq etməkdə zərrə qədər də güzəştə getməz. Möminin meyarı Allahın rizasını ən gözəl şəkildə axtarmaq olduğuna görə heç bir mövzuya, heç bir şəxsə və heç bir şeyə qarşı mübtəlalığı və qərəzi yoxdur.

Emosionallığın təməlində yatan şey, sevginin səhv yönəldilməsidir. Həqiqi mömin sevgisini yalnız Allaha və Onun razı olduğu kəslərə yönəldər. Bunun xaricində, yəni Allahın rizası xaricində bəslənən sevgi Quranda **"büt qəbul etmək"** və ya **"şərik qoşmaq"** adlandırılan hal olur. Bu vəziyyət Quranda belə açıqlanır:

**İbrahim dedi: "Siz yalnız dünya həyatında aranızdakı sevgi (dostluq) uğuruna Allahı qoyub bütləri ilah qəbul etdiniz. Sonra qiyamət günü bir-birinizi inkar edəcək və bir-birinizə lənət oxuyacaqsınız. Sizin sığınacağınız yer cəhənnəmdir və sizin heç bir yardımçınız olmayacaqdır." (Ənkəbut surəsi, 25)**

Ayədə bu şəkildə bildirilir:

**Ey iman edənlər! Əgər atalarınız və qardaşlarınız iman etmək əvəzinə küfrü seçərlərsə, onları dost tutmayın (onlarla yaxınlıq etməyin)! Sizdən kim onları dost tutarsa, onlar əsil zalımlardır. De: "Əgər valideyniniz, övladlarınız, bacı-qardaşlarınız, həyat yoldaşınız, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun elçisindən və Onun yolunda cihad etməkdən daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz.**

**(Tövbə surəsi, 23-24)**

Quranda, Allahın əmrlərini yerinə yetirmək üçün evlərini və ailələrini tərk etmək məcburiyyətində qalan möminlərdən bəhs edilir. Onlardan biri də hz. Məryəmdir. Hz. Məryəmin gənc və müdafiəsiz olması, yalnız Allaha təvəkkül

edib Onun rizasını qazanmaq məqsədilə tək başına, ailəsindən və qövmündən ayrılmasına mane olmurdu. Quranda hz. Məryəm haqqında bəhs edilərkən belə deyilir:

**Kitabda (Quranda) Məryəmi də yad et! Bir zaman o, ailəsindən ayrılaraq şərq tərəfdə bir yerə çəkilmişdi. (Məryəm surəsi, 16)**

Quranda başqa bir misal isə, Kəhf hekayəsində adı çəkilən gənclərdir. Onlar, qövmləri Allaha qarşı üsyan etdiklərinə görə onlardan ayrılmış və bir mağaraya sığınmışlar:

**Bizim bu qövmümüz Allahdan başqa ilahlar qəbul etdi. Onlar bu ilahlar barəsində açıq bir dəlil gətirməli deyildilərmi?! Elə isə, Allah barəsində yalan uydurandan daha zalım kim ola bilər?! (Həmin gənclərdən biri belə dedi:) "Madam ki, onlardan və Allahı qoyub ibadət etdiklərindən uzaqlaşmısınız, onda dərhal mağaraya sığının ki, Rəbbiniz sizin üçün Öz mərhəmətindən bəxş etsin və bu işinizdə ehtiyacınız olan şeyləri sizin üçün hazırlasın". (Kəhf surəsi, 15-16)**

Bir sözlə, əgər cahil cəmiyyətdən olan bir insanın ailəsi Quran əxlaqına sahib deyilsə və övladlarının Allahın rizasını axtarmasına mane olmağa çalışırsa, onlara həqiqəti gözəl şəkildə izah etmək lazımdır. Əgər bu izah kömək etməzsə, nəzakətli və səbirli davranmalı, lakin Quranda bildirildiyi kimi, Allaha şirk qoşmağa çağırırlarsa, onların sözlərinə əməl edilməməlidir.

# "İslamı yaşamağa başladıqdan sonra keçmiş həyatımda etdiklərimə görə məsuliyyət daşıyıram?" deyənlərə cavab

İnsan islamı tanımadan əvvəl, Quranın dili ilə desək **"cahil"** sayılır, nəyin doğru, nəyin səhv, nəyin pis olduğu haqqında həqiqi məlumatı yoxdur. İslamı qəbul etdikdə isə bu elmi əldə edər, bütün keçmiş həyatından əl çəkər, Allahdan bağışlanma diləyər və tövbə edər. Sonsuz rəhməti olaraq islama səmimi qəlbdən üz tutan, keçmiş həyatında etdiyi günahlardan tövbə edib doğru yola yönələn insanın tövbəsini Allahın qəbul edəcəyini, keçmiş pis əməllərini yaxşı əməllərə çevirəcəyini vəd edir:

**Ancaq tövbə edib iman edən və yaxşı işlər görənlər bundan istisnadır. Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayandır, mərhəmətlidir. (Furqan surəsi, 70)**

**Həqiqətən, Mən, tövbə edib iman edən, yaxşı işlər görən sonra da doğru yolda gedən kimsəni bağışlayanam! (Taha surəsi, 82)**

Tövbə etmək təkcə islamı qəbul edənlərin deyil, bütün möminlərin həyatı boyu davam etmələri lazım olan, Allahın sonsuz rəhmət və bağışlanmasına səbəb olan ibadətdir. Çünki heç bir mömin özünü xəta etməkdən və günah işləməkdən uzaq hesab edə bilməz.

Mömin Allahın hüzurunda ümidlə qorxu arasında bir ruh halındadır. Ölənə qədər, axirətdəki vəziyyətinin necə olacağını bilmədiyinə görə heç bir şəkildə Allahın əzabından arxayın olmaz. Ancaq nə qədər pis vəziyyətdə olsa da, etdiyi günahlar nə qədər böyük və çox olsa da, heç vaxt Allahın rəhmətindən ümidini kəsməz.

Şeytanın ən böyük hiylələrindən biri də insanlara ümidsizlik aşılamaqdır. Şeytanın və ya həyatını şeytanın ilhamı ilə yönləndirənlərin verdiyi **"artıq gecdir", "bundan sonra səni heç kim xilas edə bilməz", "onsuz da boynuna**

**qədər günah içindəsən**" vəsvəsələr insanları Allahın sonsuz bağışlama və mərhəmətindən uzaq tutmaq məqsədi daşıyır. Allah bir çox ayədə insanları şeytanın və tərəfdarlarının onları cəhənnəmə sürükləmək üçün qurduğu bu ümidsizlik tələsinə qarşı xəbərdar edir, onları tövbə etməyə və bağışlanma diləməyə çağırır.

**De: "Ey özlərinə qarşı həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin! Şübhəsiz, Allah bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayandır, rəhmlidir. Sizə əzab gəlməmişdən əvvəl Rəbbinizə dönün və Ona təslim olun! Yoxsa sonra sizə yardım olunmaz. Fərqində olmadığınız bir vaxtda qəflətən sizə əzab gəlmədən əvvəl Rəbbinizdən sizə nazil edilənin ən gözəlinə (Qurana) tabe olun!" (Zumər surəsi, 53-55)**

**Allah tövbələrinizi qəbul etmək istəyir. (Nəfsani) arzularına uyanlar isə sizin böyük bir əyriliyə (əyri yola) meyil etməyinizi istəyirlər. (Nisa surəsi, 27)**

**Kim pis bir iş görər və ya özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan və mərhəmətli olduğunu görər. (Nisa surəsi, 110)**

Bu ayələri gördükdən sonra Qurana həqiqi iman edən hər kəsin heç bir vəziyyətdə şeytanın ümidsizlik tələsinə düşməsi qeyri-mümkündür. Ancaq Allahın bağışlamasına təvəkkül edib, "**Allah necə olsa bağışlayar**" deyərək günahlarından əl çəkməyənlər, Allahın əmr və qadağalarına əməl etməyənlər isə şeytanın başqa bir tələsinə düşərlər. Və bu vəziyyəti islah etmədikcə, peşman olmadıqca və doğru yola yönəlmədikcə tövbələri qəbul olmaz. Çünki Allah Quranda hansı tövbələri qəbul edəcəyini bildirmişdir:

**Allahın qəbul etdiyi tövbə yalnız bilmədən pis iş görən, sonra da dərhal tövbə edənlərin tövbəsidir. Allah onların tövbəsini qəbul edər. Allah hər şeyi biləndir, hikmət sahibidir. (Nisa surəsi, 17)**

Nəticə etibarı ilə islamı səmimi və qətiyyətlə yaşamağa başlayan və keçmiş həyatını tərk edən insan keçmiş həyatında nə qədər pislik etmiş olsa da, bu etdiklərinə görə məsuliyyət daşımır. Şübhəsiz ki, bu dəyərləndirmə möminlər üçün də keçərlidir. Yəni islamı qəbul edən bir insanın əvvəlki həyatında etdiklərinin möminlər üçün heç bir əhəmiyyəti yoxdur. Gələcək həyatını Quran əxlaqına uyğun şəkildə qurmalıdır, çünki Allah qatında bundan məsul olacaqdır.

# "Din əxlaqı ilə yaşamaq istəyirəm, amma bu gücü özümdə tapa bilmirəm" səhv düşüncəsinə cavab

Yuxarıdakı bu cümlə səmimiyyətsizliyin çox yayılmış ifadəsidir. Bunu deyən şəxs əslində bunu bilir ki; həqiqəti deyil, öz eqoist istək və arzularının ona göstərdiyi bir qaçış üsuludur. Çünki din, insanların güc yetirə bilməyəcəyi bir həyat tərzi deyil. Allah insanları Ona xidmət etmək üçün yaratmışdır. Bu, insanın əsas vəzifəsidir və onun yaradılışı da bunu tələb edir. Quranda insanın Allaha bəndə olmaq məqsədilə yaradıldığı bildirilir:

**Cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım. (Zəriyət surəsi, 56)**

**"Mənim dini yaşama gücüm yoxdur"** demək, səmimiyyətsiz qaçış üsulundan başqa bir şey deyil. Çünki Allah insana gücü çatdığından çox çətinlik yükləməz. Bu mövzu ilə bağlı ayələr belədir:

**Biz heç kəsi gücünün çatmadığı bir şeydən məsul tutmarıq. Bizim dərgahımızda haqqı söyləyən bir kitab vardır. Onlara heç bir haqsızlıq edilməz. Xeyr, onların qəlbi bu (Quran) barədə cəhalət içindədir. Onların bundan başqa (pis) əməlləri də vardır. (Muminun surəsi, 62-63)**

**İman edib yaxşı işlər görənlərə gəldikdə, - Biz heç kimə gücü yetdiyindən artıq (vəzifə) yükləmərik - onlar cənnət əhlidirlər. Onlar orada əbədi qalacaqlar. (Əraf surəsi, 42)**

İslamda: **"Allah yolunda layiqincə cihad edin! O sizi seçdi və dində sizə heç bir çətinlik yükləməyib, atanız İbrahimin dinindəki kimi..."** (Həcc surəsi, 78) ayəsində vurğulandığı kimi iman edən bir insan üçün **"heç bir çətinlik"** yaratmayıb. Dinin insana fiziki cəhətdən çətin olan tərəfi yoxdur. Bütün dualar

çox asandır. Allahın Quranda buyurduğu əxlaq və həyat, insana axtardığı hüzuru, əmin-amanlığı, sevinci və rahatlığı bəxş edər, həqiqi sevgi və dostluğu yaşamasını təmin edər, özünü qayğılardan, qorxu və nəfsani istəklərindən təmizləyən böyük bir nemətdir. Allah insanlara çətinlik istəməz. Peyğəmbərin Quranda bildirilən xüsusiyyətlərindən biri də **"möminlərin ağır yükünü və üstlərindəki zincirləri götürər."** (Əraf surəsi, 157)

Ona görə də insanın **"mən dini yaşaya bilmərəm, gücüm yoxdur"** deməsinin mənası yoxdur. Buna baxmayaraq, eyni məntiqi irəli sürənlər varsa, bunun tək bir izahı var: Bu insan səmimiyyətsiz əxlaq göstərir və öz eqoist istəklərini qane etmək üçün Quran əxlaqından qaçmaq üçün bəhanə tapmağa çalışır. Quranda, **"qəlbində xəstəlik olan"** insanların bəzi çətin anlarında xilas olmaq üçün möminlərə qarşı bu cür bəhanələr irəli sürmələrinə diqqət çəkilir.

Buna bənzər qeyri-səmimi məntiq irəli sürənlərin vəziyyəti Quranda belə bildirilir:

**Müşriklər: "Əgər Allah diləsəydi, biz də, atalarımız da müşrik olmazdıq və heç bir şeyi haram etməzdik", - deyəcəklər. Onlardan əvvəlkilər də bu şəkildə (elçiləri) təkzib etmiş və sonunda əzabımızı dadmışdılar. De: "Yanınızda bizə göstərə biləcəyiniz bir bilgi (dəlil) varmı? Siz ancaq zənnə uyursunuz və yalan söyləyirsiniz". (Ənam surəsi, 148)**

Bu cür üsullardan istifadə edən səmimiyyətsiz insanların ən böyük səhvi Allahı və möminləri aldada biləcəklərini zənn etmələridir. Halbuki onlar, nə **"qəlbdə olanları da bilən"** (Fatir surəsi, 38) Allahı, nə də Allah qatından **"yaxşı və pisi bir-birindən ayırd edən nur və anlayış"** (Ənfal surəsi, 29) verilmiş möminləri aldada bilməzlər.

# NƏTİCƏ:
# "Eşitdik və itaət etdik" demək

Əvvəlki səhifələrdə araşdırdığımız suallar, din əxlaqı ilə ilk dəfə tanış olan və hələ də cahiliyyə əxlaqının təsiri altında olduqları üçün dinin bəzi həqiqətlərini qavramaqda çətinlik çəkən insanların ağlına gələ biləcək suallardır. Din əxlaqını yenicə öyrənmiş bir insanın bu cür düşüncələrə sahib olması tamamilə təbii haldır və əlbəttə ki, qəribə və ya utanc verici bir şey deyil.

Halbuki Allah bütün bu sualların cavablarını Quranda insanlara bildirmişdir. Peyğəmbərimizin həyatı möminlər üçün ən gözəl nümunədir. Quranda verilən bütün cavablar: **"Onların sənə çəkdiyi elə bir məsəl yoxdur ki, Biz sənə (onun) doğru olanını və daha yaxşı izahını gətirməyək."** (Furqan surəsi, 33) cahiliyyə əxlaqının yaratdığı bütün sual və tərəddüdləri aradan qaldıracaq qədər açıq və dəqiqdir.

Belə olan halda bu sualları verən şəxs həqiqətən səmimidirsə, bu cavablarla kifayətlənər və Allahın əmrlərinə tabe olar. Ağlında başqa suallar varsa, onların da cavablandırılacağını bilməlidir. Çünki insan din əxlaqına yaxınlaşarkən həqiqəti tapmağı qarşısına məqsəd qoyarsa, Quranın **"hidayətə çatdıran"** vəsfi sayəsində qısa zamanda həqiqəti görər. Bu halda onun edəcəyi tək şey doğru gördüyü şeyi səmimiyyətlə qəbul edib ona tabe olmaqdır. Möminlərin bu mövzudakı səmimiyyəti Quranda belə açıqlanır:

**Aralarında hökm verməsi üçün Allaha və Rəsuluna çağırıldıqları zaman möminlərin sözü ancaq: "Eşitdik və itaət etdik!" - deməleridir. Nicat tapanlar məhz onlardır! Kim Allaha və Onun elçisinə itaət edər və Allahdan qorxub çəkinərsə, onlar əsil uğur qazananlardır. (Nur surəsi, 51-52)**

Ancaq bir insan Quranın bütün ayələrini öyrəndikdən və onların həqiqət olduğunu vicdanla qəbul etdikdən sonra yenə də Allahın əmrlərinə tabe olmur və itaət etmirsə, bu, həmin insanın səmimiyyətsizliyinin sübutudur. Çünki doğru bildiyi həqiqəti rədd edir və səhv olduğunu öyrəndiyi sistemdə

yaşamaqda israr edir. Bu səhv israrın onu hansı sona aparacağını unutmamalı və bundan çəkinməlidir:

**Nəfsinin istəklərini özünə ilah qəbul edəni gördünmü?! Allah onu Öz əzəli elmi ilə bildiyi üçün haqq yoldan azdırıb qulağını və qəlbini möhürləmiş, gözünə də pərdə çəkmişdir. Elə isə Allahdan başqa kim onu doğru yola yönəldə bilər?! Hələ də düşünüb öyüd almırsınızmı? (Casiyə surəsi, 23)**

Belə bir gedişin sonu, içində əbədi qalacağı cəhənnəmdir... Buna görə də ağıllı və vicdanlı bir insanın vəzifəsi ayədə bildirildiyi kimi "**eşitdik və itaət etdik**" deməkdir.

Buna görə də, "**eşitdik və itaət etdik**" deməyə mane olan amillərə qarşı son dərəcə diqqətli olmaq lazımdır. Bunlardan ən mühümü, yuxarıda qeyd etdiyimiz kimi, "**arzu və istək**", yəni insanın eqoist istəkləridir. İstəyin mənbəyi insanın içindəki "**nəfs**"dir. Nəfs, ayədə bildirildiyi kimi "**...şiddətli şəkildə pis işlər görməyi əmr edər...**" (Yusif surəsi, 53) Madam ki, nəfs insana "**şiddətli şəkildə pis işlər görməyi əmr edər...**" o halda insan, nəfsinin ona verdiyi səhv təlqinlərinə qarşı son dərəcə ayıq olmalıdır.

Bu məqama diqqət yetirmək lazımdır: Şübhəsiz ki, cahil cəmiyyətdən çıxan və Quran əxlaqı ilə yeni tanış olan bir insan, nəfsindən onu "**pisliyə**" yönəldəcək çoxlu əmrlər alacaqdır. Nəfsi onu mümkün qədər öz istək və arzularına uymağa yönəldəcək və din əxlaqından uzaqlaşdırmağa çalışacaq. Nəfsi, möminlərin ona söylədikləri və ya Qurandan oxuduqları bütün həqiqətlərə qarşı ona bəzi yalanlar və şübhələr verməyə çalışacaq. Vicdanı və ağlı ona möminlərlə bir yerdə olmağı əmr etdiyi halda, nəfsi onu cahil cəmiyyətlə birlikdə olmağa yönəltməyə çalışacaq.

Bu səbəbdən möminlərlə yeni tanış olan və dini öyrənməyə çalışan bir insan davranışlarına nəzarət etməli, istəklərini ölçməlidir: Davranışının mənbəyi nəfsinin yoxsa vicdanının istəkləridir?

# Nəfsin uydurduğu bəhanələr

Davranışların qaynağının nəfs yoxsa Allahın rizası və vicdan olduğu sualına bəzi əsas meyarlar qoyula bilər. Allah Quranda bizə mühüm meyar verir:

**Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona dua edənlərlə birlikdə (çətinliklərə qarşı) səbir et! Dünya həyatının zinətini istəyərək gözlərini onlardan çevirmə! Qəlbini Bizi anmaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işində ifrata varan kimsəyə boyun əymə! (Kəhf surəsi, 28)**

Ayədə möminlərə hansı davranışın Allahın rizasına uyğun, hansı davranışın nəfsdən qaynaqlandığı bildirilir: **"Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona dua edənlərlə birlikdə olmaq"** Allahın rizasına uyğun davranışdır. Digər tərəfdən, qəlbi **"Allahı anmaqdan qafil olan, nəfsinin istəklərinə uyan"**lara üz tutaraq onların həyat tərzinə doğru sürüklənmək tamamilə nəfsani davranışdır və Allaha qarşı itaətsizlikdir. Bu, son dərəcə əhəmiyyətli ölçüdür və islam əxlaqına yeni başlayan insanın diqqət edəcəyi ən mühüm məsələlərdən biridir.

Digər tərəfdən, bu səmimiyyətdən məhrum olan və ya öz nəfsinin istəklərinin təsiri altında olan insanlar möminlərin yanında olmaq üçün belə bir səy göstərməzlər. Nəfsləri onlara bəhanələr tapmağa vadar edər və bu bəhanələrlə möminlərlə birlikdə olmalarına mane olmağa çalışar. Və möminlərə bu bəhanələrlə gələrlər. Öz ağıllarında bu bəhanələrlə möminləri aldadacaqlarınını düşünərlər. Lakin onların uydurduqları bəhanələr nə Allah qatında, nə də möminlərin nəzərində keçərli deyil.

Gündəlik həyatda bu bəhanələrin (həqiqətdən qaçma üsulları) çoxlu nümunələrinə rast gəlmək mümkündür. Bəzi nümunələr bunlardır:

İnsanların dini vəzifələrini yerinə yetirmələrinə, dinin hökmlərinə tabe olmalarına, möminlərlə birlikdə olmalarına mane olmaq üçün nəfsin ortaya atdığı ən çox bəhanələrdən biri də **"ailə problemləri"**dir. Nəfsinin səsini dinləyən və Allaha az itaət edən insanlar tez-tez **"ailəmin qayğısına qalmaqdan**

**vaxt tapa bilmirəm"** və ya **"ailəm icazə vermədiyinə görə dinin hökmlərinə əməl edə bilmirəm"** kimi bəhanələr irəli sürürlər. Lakin bunların heç biri Allah qatında keçərli olmaz. Təbii ki, insanın ailəsi ilə bağlı işləri ola bilər, ailəsinə vaxt ayırmalıdır. Ancaq bu, Quranın əmrlərini yerinə yetirmək üçün vaxtın olmaması ilə nəticələnməməlidir. Ona görə də bu səmimi bəhanə deyil.

Bəlkə də bu insan **"ailə problemləri"** bəhanəsi ilə özünü aldadır, ancaq Allahı və möminləri aldada bilməz. Necə ki, Quran bu məsələyə diqqət çəkir və **"ailə problemləri"** bəhanəsinin əsassız olduğunu bildirir. Quranda bildirildiyi kimi, Peyğəmbərimizin (s.ə.v) dövründə Allah yolunda mübarizədə arxada qalanlar Peyğəmbərimizin (s.ə.v) hüzuruna gələrək **"...Mallarımız və ailələrimiz bizi (döyüş üçün səfərə çıxmaqdan) yayındırdı..."** kimi bəhanə irəli sürdülər, lakin Allah onlar haqqında: **"... Onlar dilləri ilə qəlbində olmayanı deyirlər..."** (Fəth surəsi, 11) Başqa bir ayədə Peyğəmbərimiz (s.ə.v) dövründə döyüş zamanı **"...Həqiqətən, evlərimiz açıqdır (təhlükə altındadır)..."** deyərək qaçmağa çalışanlar belə bildirilir:

**Bu vaxt onlardan bir dəstə: "Ey Yəsrib (Mədinə) xalqı, sizin üçün burada qalacaq yer yoxdur, geri qayıdın!" – demişdi. Onlardan bir dəstə də elçidən izin istəyərək: "Həqiqətən, evlərimiz açıqdır (təhlükə altındadır)", - deyirdilər. Halbuki, evləri açıq deyildi. Onlar sadəcə olaraq (döyüşdən) qaçmaq istəyirdilər.**

**(Əhzab surəsi, 13)**

Nəfsin irəli sürdüyü başqa bir bəhanə isə **"iş"** və ya **"məktəb"** problemlərinin dinin hökmlərin həyata keçirilməsinə mane olmasıdır. Sözdə "iş" və ya "məktəb" o qədər vaxt aparır ki, namaz qılmaq, oruc tutmaq, insanlara yaxşılığı əmr etmək, gözəl əxlaq göstərmək, möminlərlə birlikdə olmaq imkanı qalmır.

Əslində bu bəhanəni irəli sürən adamın düşüncəsində çatışmazlıq var. Bu şəxs işinin və ya məktəbinin həyatında ən vacib məsələ olduğunu düşünür və qalan vaxtını dinə ayırmağa üstünlük verir. Ancaq mömin üçün belə bir "fərq"dən söhbət gedə bilməz. Təbii ki, möminlər də yaxşı təhsil alarlar, təhsilə əhəmiyyət verərlər, iş və peşə sahibi olarlar, lakin bunların heç biri onların din əxlaqını yaşamasına mane olmaz.

**"De: "Şübhəsiz, mənim namazım da, ibadətim də, həyatım da, ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür."** (Ənam surəsi, 162) ayəsinə görə möminin bütün həyatı Allahın rizasına görədir; həyatın bir hissəsini dinə, bir hissəsini də "dünya işlərinə" həsr etmək Quran əxlaqına uyğun gəlmir. Buna görə də, mömin həm işi, həm də təhsili ilə Allah rizası üçün maraqlanar.

İşindən qazandığını Allahın rizasını qazanmaq üçün xərcləməli, məktəbdə öyrəndiyini isə Allahın dininə xidmət etmək üçün istifadə etməlidir. Və bu halda, dinin bir hökmünü həyata keçirməyin, digərini həyata keçirməkdə mane olmadığı üçün, **"iş və ya məktəbə görə dini yaşamaq üçün imkan tapmamaq"**dan söhbət gedə bilməz.

Əks halda, **"gələcək qayğısından"** doğan bəzi dünyəvi mənfəətlərin güdüldüyü və bunların dindən üstün tutulduğu bir vəziyyət yarana bilər. Bu, Allahın Quranda bildirdiyi kimi, **"dünya həyatını"** Allahın rizası və axirət həyatından üstün tutmaqdır. Halbuki dünya həyatı Allahın rizası və axirət qarşısında çox dəyərsizdir:

**Dünya həyatı yalnız oyun və əyləncədən ibarətdir. Şübhəsiz, axirət yurdu təqva sahibləri üçün daha xeyirlidir. Yenə də düşünüb dərk etmirsinizmi? (Ənam surəsi, 32)**

Buna baxmayaraq, dünya həyatına öz nəfsani istək və hərisliyinin qulu olanların vəziyyəti belədir:

**Kim dünya həyatını və onun zinətini istəyərsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar heç bir haqsızlığa məruz qalmazlar. Onların axirətdə oddan başqa heç bir payı olmayacaqdır. (Bu dünyada) gördükləri işlər orada puç olacaq və etdikləri əməllər boşa çıxacaqdır. (Hud surəsi, 15-16)**

İnsanların Quran əxlaqını yaşamalarına mane olmaq üçün nəfsin irəli sürdüyü bəhanələrdən biri də **"kütlə təzyiqi"**dir. Buna görə də, bəzi insanlar **"Quran əxlaqını yaşasam tənqid olunaram, hər kəs tərəfindən kənarlaşdırılaram"** deyə narahat olurlar.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Allahın dininə tabe olmağa və Allahdan başqa heç bir rəhbər tanımamağa qərar verən insan ilk baxışdan çətinlik və ya bəla kimi görünən bəzi imtahanları gözə almalıdır. Mömin olduqda yaxın ətrafı ona pis reaksiya verə bilər; buna təəccüblənməmək lazımdır. Əslində onun bu reaksiya ilə qarşılaşmaması təəccüblü olar. Çünki dinlə yeni tanış olan insan əvvəlki səhifələrdə tez-tez vurğuladığımız kimi "**cahil cəmiyyət**"dən çıxmasıdır. Ona görə də, onun keçmiş tanışları da bu cəmiyyətin bir parçasıdır. Və bu cəmiyyət səhv yoldadır:

**"...Hökm ancaq Allahındır. O, yalnız Özünə ibadət etməyinizi əmr etmişdir. Doğru din budur, lakin insanların çoxu bilmir.**

**(Yusif surəsi, 40)**

Başqa bir ayədə belə deyilir:

**...Bu, Allahın vədidir. Allah Öz vədinə xilaf çıxmaz. Lakin insanların çoxu bunu bilmir. Onlar dünya həyatının zahirini (görünən tərəfini) bilir, axirətdən isə xəbərsizdirlər.**

**(Rum surəsi, 6-7)**

İnsanların çoxunun iman etməməsinin səbəbi, yuxarıdakı ayədə də ifadə edildiyi kimi, ağıl və dərk etmə qabiliyyətinin zəif olmasından qaynaqlanır. Onlar dünya həyatının ancaq "**zahiri**" (görünən) hissəsini bilirlər, lakin "**gizli**" (batin) hissəsini dərk etmirlər. Onlar axirətdən tamamilə xəbərsizdirlər. Odur ki, "**insanların çoxunun**" doğru yolda olmasını gözləmək böyük səhv olar. Əksəriyyət, "**Sən nə qədər istəsən də, insanların çoxu iman edəsi deyil.**" (Yusif surəsi, 103) hökmünə görə səhv yolda getməkdə israrlı olacaq. Bu halda mömin çoxluğun fikirlərini özünə meyar kimi qəbul etməsi mümkün deyil. Quran bu məsələyə diqqət çəkir:

**Əgər yer üzündəkilərin çoxuna tabe olsan, onlar səni Allahın yolundan azdırarlar. (Ənam surəsi, 116)**

Yer üzündə **“tabe olunmaması lazım olan”** insanların bu böyük əksəriyyətinə insanın cahil cəmiyyətindəki yaxın tanışları da daxildir. İnsan Quranda bildirilən qaydalara uyğun olaraq iman edib yaşamağa başladığı zaman əksəriyyətə və onun əvvəlki tanışlarına zidd vəziyyətlər yarana bilər. Bunun səbəbi isə, bu insanların din əxlaqının bəxş etdiyi gözəlliyi, fədakarlığı, vəfa və sədaqəti anlaya bilməmələridir. Ancaq möminin mühüm xüsusiyyəti vardır: O, bu çoxluq və yaxın tanışları ilə ziddiyyət təşkil etməkdən, onlar tərəfindən qınanmaqdan, özünə pis gözlə baxmalarından heç vaxt çəkinməz. Möminlərin heç kimin qınamasından qorxmadıqları Quranda xüsusilə vurğulanır:

**Ey iman edənlər! Sizdən hər kim öz dinindən dönərsə, (bilsin ki,) Allah elə bir tayfa gətirər ki, Allah onları sevər, onlar da Allahı sevərlər. Onlar möminlərə qarşı mülayim, inkar edənlərə qarşı isə sərt olar, Allah yolunda cihad edər və tənə edənin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür. Onu dilədiyi kimsəyə verər. Allah (lütfü ilə) genişdir, hər şeyi biləndir. (Maidə surəsi, 54)**

Mömin Allahın rizasını axtarar. İnsanların ondan razı olub-olmamasının onun üçün əhəmiyyət kəsb eləmir. Əgər Allah ondan razı olsa (və lazım gələrsə), onu insanların gözündə də yüksəldər.

Ona görə də, **“ailəm vaxtımı alır”, “nə dərsdən, nə də işdən vaxt tapa bilmirəm”, “ətrafımdakılardan pis reaksiyalar alıram”** kimi ifadələr sadəcə bəhanədir. Bu cür bəhanələrlə möminlərlə bir yerdə olmaqdan və onların dini ibadətlərini yerinə yetirməkdən qaçan bir insan əslində səmimi yanaşmaz.

Bu halda insan möminlərlə birlikdə olmaq, Allahı zikr etmək və dini ibadətlərini yerinə yetirmək üçün ciddi səy göstərməsə, ancaq buna baxmayaraq möminlərə fərqli görünməyə çalışarsa, bunu belə izah etmək olar: Bu insan mənfəət əldə etməyə çalışır. Möminlərin bəzi imkanları ona çəkici gəlir və o, bu imkanlardan yararlanmağı düşünür.

Ancaq möminlər bu şəxsin əsl niyyətinin fərqindədirlər. Əgər səmimiyyətsizliyini görüb yenə də qarşı tərəfə bu vəziyyəti hiss etdirmirlərsə, bunun səbəbi, bəlkə sonradan səhvlərini anlayacağını düşünmələrinə görədir. Bunun əksi, yəni səmimi olmayan bir insanın möminləri aldatması mümkün deyil.

Əslində, bu cür insanların hər kəsdə rast gəlinən bəzi xarakterik xüsusiyyətləri var.

Bu xüsusiyyətlərdən ən bariz olanı Allahı zikr etmək istəməmələridir. Quranda kafirlərdən bəhs edilərkən belə buyurulur: **"Allah tək olduğu (vəhdaniyyəti) anıldığı zaman axirətə inanmayanların qəlbi nifrətlə dolar. Lakin Ondan başqaları anıldığı zaman onlar dərhal sevinərlər."** (Zumər surəsi, 45) deyilir. Hansısa mənfəətə görə möminlərlə bir yerdə olmağa çalışanların davranışı da eynilə belədir. Belə insanlar Allahın zikr edilməsindən və Onun ruzilərinin xatırlanmasından narahat olurlar. Digər tərəfdən mənfəətlərini təmin edəcək yerlərdə böyük həvəslə iştirak edirlər.

Möminlər son dərəcə şəfqətli və mərhəmətli davranarlar; heç vaxt sərt davranmazlar. Ancaq səmimi olmayan insanlar bunun mənasını və məqsədini anlamırlar. Cahil cəmiyyətdə həmişə münaqişə dolu mühitlərə öyrəşdikləri üçün möminlərin mülayim olmasından sui-istifadə edərək onlara qarşı təkəbbür göstərməyə çalışırlar. Əslində onlar ancaq özlərini alçaldırlar.

Bu halda səmimiyyətsiz insan möminlərdən heç bir mənfəət əldə etməyin mümkün olmadığını tez anlayar və möminlərdən tez bir zamanda uzaqlaşıb keçmiş həyatına qayıtmaq istəyər. Tezliklə yeni bir bəhanə ilə buna nail olar və heç vaxt tərk etmədiyi cahil cəmiyyətinə qayıdar. Belə insanların axirətdəki mövqeyi bir ayədə belə bildirilir:

**Haqq yol aydın olduqdan sonra kim elçiyə qarşı gələr və möminlərin yolundan başqa bir yol izləyərsə, onu yönəlmiş olduğu yola döndərər və cəhənnəmə atarıq. Ora necə də pis bir qayıdış yeridir! (Nisa surəsi, 115)**

Əslində belə bir səmimiyyətsiz insanın möminlərdən ayrılması möminlər üçün böyük bir rəhmətdir. Beləliklə, Allah möminləri təmizləyir və onları Nur surəsinin 55-ci ayəsində: **"...Onlar Mənə ibadət edirlər və heç nəyi Mənə ortaq qoşmurlar..."** ifadəsi ilə mömin ümmətinə çevirir. Allah möminlərlə ikiüzlü inkarçıları bir yerdə saxlamaz, onları bir-birindən ayırar.

**"Həqiqətən, içinizdən cihad edənləri və səbir edənləri ortaya çıxarana qədər sizi sınayacaq və haqqınızdakı xəbərləri yoxlayacağıq."** (Məhəmməd surəsi, 31) hökmünə görə Allah, həqiqətən səmimi şəkildə iman edənləri imtahana çəkəcək və ortaya çıxaracaq. Digər tərəfdən, qeyri-səmimi

münafiqlər də ortaya çıxacaqlar. Allah **"təmiz"i "murdar"dan** ayıracağını bu cür müjdələyir:

**Bu ona görə idi ki, Allah murdar olanı təmiz olandan ayırd etsin, murdar olanları bir-birinin üstünə yığaraq hamısını toplasın və onları cəhənnəmə atsın. Onlar əsil ziyana uğrayanlardır!**

**(Ənfal surəsi, 37)**

Halbuki əgər insan səmimi olarsa, Allah onun qəlbini islama açar. **"Eşitdik və itaət etdik"** demək, saleh insan üçün dünyada ən böyük ləzzətdir. Onu yaradan, düz yola yönəldən, cənnətə aparacağını vəd edən Allaha itaət etmək ən böyük hüzur, xoşbəxtlik və sevinc mənbəyidir. Bir sözlə, **"Biz ona iki yol (yaxşı və pis yol) göstərdik."** (Bələd surəsi, 10) ayəsində bildirildiyi kimi insanın qarşısında iki yol vardır: Allaha itaətə əsaslanan və insana Onun rizasını, rəhmətini və cənnətini qazandıracaq iman yolu, bir də, Allaha üsyan edib nəfsinin eqoist istəklərini ilah edənlərin və dünyada xor, zillət, axirətdə isə sonu cəhənnəmlə nəticələnəcək üsyan yolu.

**Şübhəsiz, bu (Quran), bir öyüddür. Artıq kim istəsə, Rəbbinə doğru özünə bir yol tutar. (Müzzəmmil surəsi, 19)**

# ƏLAVƏ BÖLMƏ:
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm

irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

**"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)**

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

**"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir".**
***(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)***

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

**"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)***

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

**"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir".**
***(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)***

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu

həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış

fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

**"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)***

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

# Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

**“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)***

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

**“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)***

# Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

**"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)**

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

**"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)***

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- **Australopithecus**
- **Homo habilis**
- **Homo erectus**
- **Homo sapiens**

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli

canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

**"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)***

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü

olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

**"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)***

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon,

fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin düsturu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

# Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.

100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli

qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül

mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

**"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)***

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)***

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)**

**Onlar kitab, hökm və elçilik verdiyimiz kəslərdir. Əgər (inkar edənlər) bunları (bu dəlilləri) inkar etsələr, Biz onların yerinə bunları inkar etməyən bir qövm gətirərik. (Ənam surəsi, 89)**

**Həqiqətən, Biz onlara iman edən bir qövm üçün hidayət və rəhmət olan, elmlə açıqladığımız bir Kitab gətirdik.**

**(Əraf surəsi, 52)**

**Əlif, Lam, Ra! (Bu Quran) Rəbbinin izni ilə insanları qaranlıqlardan aydınlığa – yenilməz qüvvət sahibi və şükürə layiq olan Allahın yoluna çıxartmağın üçün sənə nazil etdiyimiz kitabdır. (İbrahim surəsi, 1)**

**Bu (Quran) insanların xəbərdar edilmələri, Allahın tək bir ilah olduğunu bilmələri və təmiz ağıl sahiblərinin düşünüb öyüd almaları üçün göndərilmiş bir təbliğdir. (İbrahim surəsi, 52)**

## MÜƏLLİF HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən dini, elmi və siyasi mövzularda çoxlu əsərlər hazırlayıb. Bundan əlavə, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını, darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd, Quranın təbliğini dünyaya çatdırmaq, bununla da insanları Allahın varlığı, birliyi və axirət həyatı kimi təməl iman məsələləri üzərində düşünməyə təşviq etmək, imansız sistemlərin saxta təməlləri və azğın əməllərini ortaya çıxarmaqdır. Yazıçının bu günə qədər 73 fərqli dilə tərcümə edilmiş 300-ə yaxın əsəri bütün dünyada geniş oxucu kütləsi tərəfindən izlənilir.

Harun Yəhya əsərlər toplusu (Allahın icazəsi ilə) XXI əsrdə dünya insanlarını Quranda bildirilən sülh və əmin-amanlığa, haqq və ədalətə, gözəllik və xoşbəxtliyə çatdırmağa vəsilə olacaqdır.